# Təməli qoyuldu

### Sankt-Peterburqda Üzeyir Hacıbəylinin heykəli ucaldılacaq



**Bu gün Sankt-Peterburqda Azərbaycan bəstəkarı, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin heykəlininn təməlqoyma mərasimi keçirilib.**

APA "Vestnik Kavkaza"a istinadən xəbər verir ki, abidə bəstəkarın adını daşıyan bağda ucaldılacaq. Mədəniyyət Nazirliyi Zəfər və İşğal muzeylərinin yaradılması üzrə fəaliyyətə başlayıb

Memarların mükafatlandırma mərasimi keçirilib

*Qeyd edək ki, abidənin müəllifi heykəltəraş, Rusiya Rəssamlıq Akademiyası və Florensiya İncəsənət Akademiyasının akademiki Aydın Zeynalov olacaq.*



## Sumqayıtda 3-cü sinif şagirdi vəfat etdi

**Sumqayıt şəhəri 11 nömrəli tam orta məktəbin 3 R sinif şagirdi Nemətova Rəna Rauf qızı vəfat edib.**

Bu barədə məktəbdən məlumat verilib.

*Qeyd edək ki, R. Nemətova uzun sürən talassemiya xəstəliyindən sonra dünyasını dəyişib.*


№ 14 (5536), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 yanvar 2022-ci il (çərşənbə)




# Qar yağacaq, güclü külək əsəcək

**Bakıda və Abşeron yarımadasında yanvarın 27-si gündüzdən 28-i səhərədək Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin 15-20 m/s, arabir 23-25 m/s-dək güclənəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, 27-28-də arabir yağıntılı olacağı, 27-si axşam, 28-nə keçən gecə və səhər bəzi yerlərdə sulu qar yağacağı ehtimalı var. Havanın temperaturu 2-6° isti olacaq.

Azərbaycanın rayonlarında yanvarın 27-də qərb rayonlarından başlayaraq 28-i axşamadək ölkə ərazisində hava şəraitinin arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Dağlıq və dağətəyi rayonlarda intensiv olacağı ehtimal var.

Qərb küləyi arabir 15-20 m/s, 27-də gündüz ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcək.

Havanın minimal temperaturu mərkəzi aran rayonlarında 0-5° şaxta, dağlarda 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 18°-dək şaxta olacaq.



## "Ermənistandan da müsbət xəbərlər alırıq"

### Prezident İlham Əliyev: "Zəngəzur dəhlizinin açılması üçün avtomobil və dəmir yolu artıq uğurla inşa edilir"

**"Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranıb". Bu barədə Prezident İlham Əliyev İranın yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasimini videoformatda qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib ki, müharibədən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət alıb: "Regional əməkdaşlığın yaradılması üçün hazırda çox ümidverici 3+3 əməkdaşlıq platforması yaradılmışdır. Artıq birinci görüş keçirildi. Əminəm ki, bu görüşlər müntəzəm olaraq keçiriləcək və region ölkələrinin maraqlarını təmin edəcək".

(səh.2)

## Mətbuata qapalı 45 dəqiqə görüş...

### Ərdoğan Türkiyə Erməni Fondları İttifaqının sədrini qəbul edib



**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Erməni Fondları İttifaqının sədri Bedros Şirinoğlunu qəbul edib.**

APA-nın yerli bürosunun məlumatına görə, bu barədə məlumatı Türkiyə Prezidentinin mətbuat katibliyi yayıb.

*Çankaya köşkündə mətbuata qapalı keçirilən görüş təxminən 45 dəqiqə davam edib.*

# NATO Ukraynaya qoşun yeritməyəcək

### Ağ Ev: "Baydenin Ukraynaya qoşun göndərməyə nə marağı, nə də arzusu var"




**NATO-nun baş katibi Yens Stoltenberq dünyanın diqqət mərkəzində olan bəzi məsələlərə aydınlıq gətirib. RİA Novosti xəbər verir ki, onun rəhbərlik etdiyi alyans Ukraynaya qoşun yeritməyəcək.**

"NATO Ukraynada qoşun yerləşdirməyəcək", - deyə baş katib CNN telekanalına müsahibəsində deyib. Daha sonra baş katib NATO-nun Rusiya ilə silahlara nəzarət, hərbi əməliyyatların şəffaflığı və digər təhlükəsizlik məsələlərini müzakirə etməyə hazır olduğunu da dilə gətirib. Stoltenberq həmçinin bildirib ki, NATO ABŞ-la əlaqələndirilmiş şəkildə bu həftə Rusiyanın təhlükəsizliklə bağlı təkliflərinə yazili cavab göndərəcək:

(səh.2)



## Astaraçay üzərində tikiləcək körpü İran və Azərbaycan arasında traniziti artıracaq

**Bu gün İran və Azərbaycan arasında Astaraçay üzərində körpünün tikilməsi iki ölkə arasında, həmçinin Rusiyaya tranzitin artması ilə nəticələnəcək.**

Trend xəbər verir ki, bunu İranın yol və şəhərsalma naziri Rüstəm Qasemi Astaraçay üzərində yeni körpünün təməlqoyma mərasimində jurnalistlərə açıqlamasında deyib.

R.Qaseminin sözlərinə görə, bu körpü digər ölkələrə məhsulların daşınmasında həm Azərbaycan, həm də İran üçün təyinedici olacaq. Körpü iki ölkənin birgə vəsaiti ilə tikiləcək. 1 il ərzində həm körpü, həm də ətrafındakı yolların hazır olması nəzədə tutulur.

# Sifarişli açıqlama...

### Paşinyanın sülh bəyanatının arxasında xüsusi məqsədlər var

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkəsinin Azərbaycanla sülh sazişi imzalamağa hazır olduğunu bildirib. Lakin baş nazir əlavə edib ki, bu sənəd danışıqlar prosesi nəticəsində tərtib olunmalıdır.**

Paşinyan xatırladıb ki, Ermənistanla Azərbaycan parlamentləri hələ 1992-ci ildə bir-birinin MDB çərçivəsində mövcud sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünü tanımaq haqqında sənədləri ratifikasiya ediblər. Ancaq baş nazirin fikrincə, bir çox məsələ və incəliklər həll olunmamış qalır və bunun üçün danışıqlar aparılmalıdır. Paşinyan qeyd edib ki, rəsmi İrəvan Ermənistan-Azərbaycan sərhədində təhlükəsizlik tədbirləri haqqında təkliflərini həm Moskvaya, həm də Bakıya təqdim edib...

(səh.3)



## Azərbaycanda antirekord

### Koronaya yoluxma sayı 2500-ə çatdı




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 468 yeni yoluxma faktı qeydə alınıb, 5 197 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 13 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 636 956 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 617 791 nəfər müalicə olunaraq sağalıb, 8 632 nəfər vəfat edib, aktiv xəstə sayı 10533 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 525, ötən müddət ərzində isə ümumilikdə 6 081 949 test aparılıb.*

## Püşkatmanın nəticəsi məlum olub

### Azərbaycan Avroviziyada ikinci yarımfinalda çıxış edəcək



**Azərbaycan Avroviziyada ikinci yarım finalda çıxış edəcək.**

Bu barədə püşkatma nəticəsində məlum olub.

Bildirilib ki, Azərbaycan təmsilçisi mayın 12-də səhnəyə çıxacaq. Birinci yarımfinal isə mayın 10-da baş tutacaq.

*Qeyd edək ki, builki müsabiqə İtaliyanın Turin şəhərində keçiriləcək.*



## Ermənistan "birtərəfli uduş" əldə etmək istəyir

### Tofiq Zülfüqarov: "Rəsmi Bakı da Zəngəzur, Göyçə və İrəvanın qaytarılması məsələsini qaldırmalıdır"

(səh.2)

## "Sülh sazişi imzalanmadan Türkiyə-Ermənistan münasibətləri normallaşa bilməz"

### Toğrul İsmayıl: "İndiki şəraitdə Ankara ilə Bakı koordinasiyalı hərəkət etməsə, proses yarımçıq qalacaq"

(səh.3)



# "Ermənistandan da müsbət xəbərlər alırıq"

## Prezident İlham Əliyev: “Zəngəzur dəhlizinin açılması üçün avtomobil və dəmir yolu artıq uğurla inşa edilir”



**”Vətən müharibəsindən sonra regional əməkdaşlıq üçün çox gözəl imkanlar yaranıb”. Bu barədə Prezident İlham Əliyev İranın yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasimini videoformatda qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib ki, müharibədən sonra İran-Azərbaycan əlaqələri bu istiqamətdə daha da geniş vüsət alıb: ”Regional əməkdaşlığın yaradılması üçün hazırda çox ümidverici 3+3 əməkdaşlıq platforması yaradılmışdır. Artıq birinci görüş keçirildi. Əminəm ki, bu görüşlər müntəzəm olaraq keçiriləcək və region ölkələrinin maraqlarını təmin edəcək”.

**“Əminəm ki, yaxın gələcəkdə İran şirkətləri azad edilmiş torpaqlarda fəal işə başlayacaqlar”**

**Prezident vurğulayıb ki, yaxın gələcəkdə İran şirkətləri azad edilmiş torpaqlarda fəal işə başlayacaqlar:** ”İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər verildi, İran tərəfi ilə ilkin danışıqlar aparıldı və indi konkret nəticələr gözləyirik. Siz azad edilmiş torpaqlarda olan dağıntıları dünən öz gözlərinizlə görmüsünüz. Ermənistan işğal dövründə bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edib. Ona görə bu böyük ərazidə - 10 min kvadratkilometrdən böyük olan ərazidə indi quruculuq işlərinə start verildi, amma gördüyünüz kimi, bu, çox genişmiqyaslı bir işdir. Yüzlərlə şəhər və kənd demək olar ki, yer üzündən silinib. Bərpa işlərinə start verildi və dediyim kimi, ümid edirəm ki, İran şirkətləri bu işlərdə fəal iştirak edəcəklər”.

**“Müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq”**

**Ölkə rəhbəri qeyd edib ki, Zəngəzur dəhlizinin açılması üçün avtomobil və dəmir yolu artıq uğurla inşa edilir:** ”Ermənistandan da biz müsbət xəbərlər alırıq. Ermənistan öz tərəfində də bu işlərə start verməyi planlaşdırır. Bir sözlə, ümid edirəm ki, müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq. Əlbəttə ki, İran İslam Respublikasının bu işlərə töhfəsi də çox önəmlidir”.

**“Rəisi ilə keçirdiyim görüş əlaqələr üçün yeni imkanlar açır”**

**Dövlət başçısı bəyan edib ki, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması, Xudafərin Su Elektrik stansiyalarının inşa edilməsi, Astaraçay üzərində körpünün inşa edilməsi prioritetlər sırasında olacaq:** ”Onu da bildirməliyəm ki, noyabrın sonlarında İran İslam Respublikasının Prezidenti cənab Rəisi ilə keçirdiyim görüş çox uğurlu, əhəmiyyətli idi və İran-Azərbaycan əlaqələri üçün yeni imkanlar açır. Bu, əlaqələrimizin, dostluq, qardaşlıq əlaqələrimizin yeni səhifəsinin açılması deməkdir”.



# Prezident yüz yaşlı vəzifə adamına "İstiqlal" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İkinci Dünya Müharibəsinin iştirakçısı, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarovanın 100 illiyi münasibətilə ona Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə ”İstiqlal” ordenini təqdim edib.**

Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

*Qeyd edək ki, Fatma Hüseyn qızı Səttarova 1922-ci ilin yanvar ayında Bakı şəhərində anadan olub. O, 1941-ci ildə - İkinci Dünya müharibəsi zamanı tibb bacısı kimi könüllü cəbhəyə yollanıb. Alman faşizminə qarşı döyüşlərdə şücaət göstərib.*

*F.Səttarova uzun illər rəhbər vəzifələrdə çalışıb. O, xeyli müddət müharibə və əmək veteranı kimi Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü olub. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyətinin ötən il yanvarın 16-da keçirilən iclasında F.Səttarova təşkilatın sədri vəzifəsinə seçilib.*

# Azərbaycan və İran hərbi əməkdaşlığı genişləndirir



**“İran və Azərbaycan hərbi əməkdaşlığı inkişaf etdirir”.**

APA-nın Tehran bürosunun xəbərinə görə, bunu İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Məhəmməd Baqiri Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşdən sonra jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, hərbi əməkdaşlığın inkişaf etdirilməsi hər iki ölkənin sabitliyinin təminatıdır: ”Müsəlman və qardaş Azərbaycanın müdafiə naziri ilə çox yaxşı görüş baş tutdu. Bu görüşdə İran İslam Respublikasının qonşu ölkələrlə, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsi haqda müzakirə apardıq”.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ilk olaraq dəvətə görə İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisinə təşəkkür edib. Azərbaycanın müdafiə naziri bildirib ki, görüş səmimi atmosferdə keçib: ”Görüşdə önəmli məsələlər haqda danışıq apardıq. Bildirdik ki, ikitərəfli əlaqələrin inkişafında qərarlıyıq. Əminəm ki, bu görüşdən sonra iki ölkənin hərbi əməkdaşlığı yüksək səviyyədə olacaq”.

*Z. Həsənov İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisini Azərbaycana rəsmi səfər dəvət etdiyini diqqətə çatdırıb: ”Ümid edirəm bu səfər tezliklə baş tutacaq”.*

# NATO Ukraynaya qoşun yeritməyəcək

## Ağ Ev: “Baydenin Ukraynaya qoşun göndərməyə nə marağı, nə də arzusu var”



**NATO-nun baş katibi Yens Stoltenberq dünyanın diqqət mərkəzində olan bəzi məsələlərə aydınlıq gətirib. RİA Novosti xəbər verir ki, onun rəhbərlik etdiyi alyans Ukraynaya qoşun yeritməyəcək.**

”NATO Ukraynada qoşun yerləşdirməyəcək”, - deyə baş katib CNN telekanalına müsahibəsində deyib. Daha sonra baş katib NATO-nun Rusiya ilə silahlara nəzarət, hərbi əməliyyatların şəffaflığı və digər təhlükəsizlik məsələlərini müzakirə etməyə hazır olduğunu da dilə gətirib. Stoltenberq həmçinin bildirib ki, NATO ABŞ-la əlaqələndirilmiş şəkildə bu həftə Rusiyanın təhlükəsizliklə bağlı təkliflərinə yazili cavab göndərəcək:

”Biz NATO-da təkliflər üzərində işi yekunlaşdırırıq. Bu həftənin sonunda yazılı sənədi göndərəcəyik. Biz bunu ABŞ-la paralel olaraq edəcəyik”, - deyə Stoltenberq bildirib. Lakin Stoltenberq onu da bildirib ki, NATO Rusiya Federasiyasi ilə Alyansanin fundamental prinsipləri ilə bağlı güzəştə getməyə hazir deyil.

Ağ Evin mətbuat katibi Cen Psaki də brifinqdə eyni mövzuya toxunub.

”ABŞ Prezidenti Co Baydenin ABŞ qoşunlarını Ukraynaya göndərməkdə nə marağı var, nə də arzusu”.

O, həmçinin, qeyd edib ki, 8500 ABŞ hərbçisinin Avropaya göndərilməsi üçün yüksək döyüş hazırlığı vəziyyətinə gətirilməsi qərarı yalnız NATO-nun ”şərq cinahını” dəstəkləmək məqsədi daşıyır.

# Qarabağa səfərlərin təşkili çox vacibdir

## Bu, imkan verəcək ki, işğaldan azad edilmiş ərazilərimiz daha qısa zamanda inteqrasiya olunsun

**Yanvarın 24-də Bakı-Şuşa-Bakı müntəzəm avtobus marşrutu istifadəyə verilib və ilk sərnişin avtobusu Şuşaya gedib. Avtobus reysi həftədə iki dəfə həyata keçiriləcək. Bakıdan Şuşaya avtobus bileti 10 manat 40 qəpikdir. İlk marşrut səfərində 47 nəfər Şuşaya gedib və onların içində sadəcə 4 nəfər şuşalı olub.**



Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən bildirilib ki, fevralın 15-nə qədər 400-ə yaxın bilet satılıb. Şuşa və Ağdam marşrut ziyarətçilərini ANAMA-nın və DYP -nin əməkdaşları müşayiət edir. Səfər iştirakçıları Şuşada Cıdır Düzü, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Bülbülün Ev-Muzeyi, Aşağı Gövhərağa məscidi, Xurşidbanu Natəvan, Xan Qızı Bulağı və Şuşa Qalasına gedə bilərlər. Marşrut xətlərinə bilet satışı onlayn qaydada ”Yolumuz Qarabağa” portalı vasitəsilə həyata keçirilir. Sərnişinlər gediş və qayıdış biletlərini əvvəlcədən eyni vaxtda sifariş etməlidir. Müəyyən imtiyazlı şəxslərə ildə bir dəfə bu istiqamətlər üzrə pulsuz bilet almaq imkanı yaradılıb. Bu kateqoriyaya Vətən müharibəsi qəhrəmanları, Milli qəhrəmanlar, şəhid ailəsinin üzvləri, Qarabağ müharibəsi əlilləri aiddir. İmtiyazlı şəxslər də daxil olmaqla bütün şəxslərə işğaldan azad olunmuş ərazilərə il ərzində yalnız bir dəfə səfər etmək hüququ verilir. Yeni marşrutlar üzrə sərnişindaşımanı həyata keçirən sürücülər mina təhlükəsizliyinə dair təlimlərə cəlb edilib. Onlara əsas təhlükəsizlik qaydalarına dair Təlimat kitabçaları təqdim olunub.

**Şuşa və Ağdama həyata keçirilən səfərlərin önəmindən danışan millət vəkili Vüqar Bayramov ”Şərq”ə deyib ki, işğaldan azad edilmiş ərazilərə səfərlərin təşkili çox vacibdir. Deputatın sözlərinə görə, bununla bağlı onlara da müraciətlər olurdu:** ”Məcburi köçkünlərlə yanaşı, digər vətəndaşlarımız da Qarabağa səfər etmək istəyir, Şuşanı və başqa yerləri görməyə can atırdılar. O baxımdan bu, çox ciddi bir imkandır. Mərhələli şəkildə insanların işğaldan azad edilmiş torpaqlara səfərləri faydalıdır. Həm də həmin ərazilərin inteqrasiyası baxımından zəruridir. Bu, imkan verəcək ki, işğaldan azad edilmiş ərazilərimiz daha qısa zamanda inteqrasiya olunsun. İşğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işləri aparılır. Bununla belə ərazilərin təhlükəsizliyi tam təmin olunmayıb. Bəzi yerlərdə minaların qalması təhlükəsizlik cəhətdən risklidir. Xüsusi proqram əsasında həyata keçirilən marşrutlar minalardan təmizlənmiş və təhlükəsizliyi tam təmin olunmuş bölgələrə reallaşdırılır. Şuşa minalardan tamamilə təmizlənib. Ancaq məskunlaşma prosesinə başladıqdan sonra vətəndaşlarımız tərəfindən daha sərbəst səfərlər həyata keçiriləcək”.

**İsmayıl Qocayev**



# Ermənistan "birtərəfli uduş" əldə etmək istəyir

## Tofiq Zülfüqarov: “Rəsmi Bakı da Zəngəzur, Göyçə və İrəvanın qaytarılması məsələsini qaldırmalıdır”

**Ermənistanın Baş naziri Nikol Paşinyan onlayn formatda keçirilən mətbuat konfransında bildirib ki, rəsmi İrəvan Azərbaycanla sülh sazişi imzalamağa hazırdır. Baş nazirin sözlərinə görə, bu sənəd əvvəlcə danışıqlar nəticəsində tərtib olunmalıdır:**

”Biz hesab edirik ki, bu danışıqlar baş tutmalıdır və Ermənistan buna hazırdır”.

N.Paşinyan xatırladıb ki, Ermənistanla Azərbaycan parlamentləri hələ 1992-ci ildə bir-birinin MDB çərçivəsində mövcud sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünü tanımaq haqqında sənədləri ratifikasiya ediblər. Lakin bir çox məsələ və incəliklər həll olunmamış qalır və bunun üçün də danışıqlar mütləqdir.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov N.Paşinyanın mətbuat konfransındakı çıxışını “Şərq”ə dəyərləndirib. O bildirib ki, Nikolun sözlərini diqqətlə dinləsək, onun sülh prosesini başa düşdüyünü anlaya bilərik:**

“Onlar Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazırdırlar. Lakin hesab edirlər ki, Qarabağ bölgəsi barəsində danışıqlar isə davam etməlidir. Rəsmi İrəvan sərhəd məsələsini Sovet vaxtında olan sərhəddi təsdiq etmək kimi başa düşür. Eyni zamanda Qarabağ bölgəsi mövzusunun açıq qalmasına çalışır və bununla da “birtərəfli uduş” əldə etmək istəyir. Yəni onlar bizim ərazi bütövlüyümüzü tanımadan, biz onların SSRİ vaxtında olan sərhədlərini tanıyaq”.

**T.Zülfüqarov onu da əlavə edib ki, Ermənistan bizim ərazi bütövlüyümüzü tanımır və hələ də Qarabağa aid hansısa layihələr, planlar hazırlayırlar:**

“Bu əraziyə 80-82 milyona yaxın maliyyə ayırmağı da nəzərdə tutublar. Paşinyan da bunu təsdiq edib. Onda rəsmi Bakı da tarixi ədalətsizliyin bərpasını istəməlidir. Əzəli torpağımız olan Zəngəzur və Göyçə mahalı, eləcə də İrəvanın qaytarılması məsələsini qaldırmalıdır. Çünki bu torpaqlar qeyri-qanuni olaraq Ermənistana verilib. Hazırkı şəraitdə bizim üçün ən məntiqli mövqe budur”.

**Günəş Mərd**

# Makronda liderlik xüsusiyyətləri yoxdur

## O, Rusiya və Ukrayna arasında vasitəçilik etmək qüdrətinə malik deyil

**Fransa Prezidenti Emmanuel Makron yaxın günlərdə Rusiya və Ukrayna liderləri Vladimir Putin və Vladimir Zelenski ilə telefon danışıqları aparmaq niyyətindədir.**

“Reallıq odur ki, Fransa son dönəmlərdə baş vermiş hansısa ciddi qlobal proseslərdə heç bir rol oynaya bilməyib”



Bu barədə Makron ABŞ və NATO ölkələrinin rəhbərləri ilə görüşündə bildirib. Makron Avropada sabitliyi qorumaq üçün bütün diplomatik resurslardan istifadə etməyə hazır olduğunu deyib. Xatırladaq ki, Türkiyə bir neçə gün öncə Ukrayna-Rusiya arasında vasitəçilik üçün tərəflərə çağırış edib. Kiyev və Moskva Ankaranın təşəbbüsünü müsbət qarşılayıb. Ekspertlər Fransa prezidentinin məhz Türkiyənin təklifindən sonra prosesə müdaxiləsinə diqqət çəkiblər. Onların qənaətincə, Makron Ukrayna böhranında həlledici rol oynamaq üçün əlini daşın altına qoymaq qərarına gəlib. Məqsəd Fransanın qlobal əhəmiyyət kəsb edən proseslərdən kənarda qalmasına mane olmaqdır.

**Fransa prezidentinin vasitəçilik təşəbbüsünü ”Şərq”ə təhlil edən politoloq Əhəd Məmmədli hesab edir ki, Makronda natamamlıq çatışmazlığı kompleksi var. Ekspertin sözlərinə görə, Fransa prezidenti çalışır ki, mühüm qlobal proseslərdə ”lider” kimi o da iştirak etsin və seçki öncəsi özünü göstərsin:** ”Makron Putin və Ərdoğan kimi liderlərlə ayaqlaşmaq arzusundadır. Öz şəxsi nüfuzu ilə yanaşı, Fransanın da aparıcı Avropa ölkəsi olduğunu sübut etməyə çalışır. Ona görə də baş vermə ehtimalı yüksək olan hərbi toqquşmanın qarşısının alınmasında rol almaq istəyir. Lakin Makron 44 günlük müharibədə etdiyi mənasız cəhdləri indi də yersiz təşəbbüslərlə Ukrayna məsələsində nümayiş etdirir. Reallıq odur ki, Fransa son dönəmlərdə baş vermiş hansısa ciddi qlobal proseslərdə heç bir rol oynaya bilməyib. Fransanın başında duran şəxsdə liderlik xüsusiyyətləri yoxdur. Makron Şarl de Qol deyil, heç Fransua Mitteran da deyil. Ümumiyyətlə, hazırda Avropada heç bir ölkənin rəhbərliyində xarizmatik, xüsusi çəkiyə malik lider yoxdur”.

**Ə.Məmmədli vurğulayıb ki, Makronun vasitəçilik təşəbbüsləri nəticəsiz qalacaq:** ”Rusiya ilə münasibətləri korlamaq niyyətində olmayan Fransanın ABŞ-la əlaqələri də yaxşı deyil. Moskva öz maraqları üçün rəsmi Parisdən gələn təklifi qəbul edə bilər. Ukrayna rəhbərliyi Makronun sözünə qulaq verməyəcək. Rəsmi Kiyev yaxşı bilir ki, Fransa Ukraynanın xeyrinə addım atmayacaq”.

**İsmayıl Qocayev**



# "Sülh sazişi imzalanmadan Türkiyə-Ermənistan münasibətləri normallaşa bilməz"

## Toğrul İsmayıl: "İndiki şəraitdə Ankara ilə Bakı koordinasiyalı hərəkət etməsə, proses yarımçıq qalacaq"

**Nikol Paşinyan 2022-ci ildə Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlərin yaradılmasını istisna etməyib. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlunun Antalyada keçiriləcək diplomatik foruma Ermənistan nümayəndəsini də dəvət etməsinə toxunan Paşinyan dəvəti qəbul edə biləcəklərini söyləyib.**

O bildirib ki, Ermənistan və Türkiyə xüsusi nümayəndələrinin Moskvadakı ilk görüşünün "müsbət dinamikası qorunub saxlanarsa", Ermənistan tərəfi Ankara ilə uzlaşa bilər: "Biz qeyd-şərtsiz diplomatik münasibətlər yaratmaqda maraqlıyıq və belə imkan mövcuddur". Paşinyan əlavə edib ki, Ermənistanın Türkiyəyə ərazi iddiası yoxdur: "İrəvan heç vaxt Ermənistan-Türkiyə sərhədinə şübhə ilə yanaşmayıb, Ermənistan-Türkiyə sərhədini şübhə altına alan heç bir erməni lideri və hökumətinə rast gəlməzsiniz. "Erməni soyqırımı"nın tanınması məsələsinə bizim yanaşmamız hökumətin proqramında öz əksini tapıb. Etiraf etmək lazımdır ki, "soyqırım"ın tanınması prosesinin lokomotivi həmişə diaspor təşkilatları olub". Türkiyə-Ermənistan münasibətlərinin normallaşma prosesi ilə bağlı "Şərq"ə danışan Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Kahraman Maraş "Sütçü İmam" Universitetinin professoru Toğrul İsmayıl qonşu ölkələrin əməkdaşlığını müsbət dəyərləndirib. Lakin professor hesab edir ki, proses kifayət qədər mürəkkəbdir...

**- Toğrul müəllim, Türkiyə-Ermənistan arasında münasibətlərin normallaşması prosesini necə dəyərləndirirsiniz? Müsbət nəticələr mümkündürmü?**

- İlk görüş Moskvada baş tutdu. Yaxın günlərdə ölkələr arasında hava nəqliyyatının işə düşəcəyi deyilir. Çətin prosesdən söhbət gedir. İki ölkə arasında uzun müddətdir diplomatik, siyasi əlaqələr olmayıb. Üstəlik, Ermənistanın Türkiyə ilə bağlı iddiaları var. O səbəbdən hazırda iki dövlət arasında danışıqlar ilkin şərtlər olmadan gedir. Əgər şərtlər ilk başdan qoyulsa, müzakirələrə başlamaq mümkün olmayacaq. Proses özü ağır və ləng olduğu üçün hadisələrin gedişatında müxtəlif məsələlər üzə çıxacaq. Daha çox sual edilir ki, ilk görüş niyə Moskvada keçirilib? Rusiyanın vasitəçiliyi İrəvan hökumətinin istəyi idi. Türkiyənin Kremlin vasitəçiliyi ilə Moskvada keçirilən görüşdən imtina etməməsi mühüm qərar idi. Ankara hökuməti Ermənistanla həqiqətən normal əməkdaşlıq niyyətində olduğunu ortaya qoyur. Əsas odur ki, ilkin addımlar atıldı. Prosesdə müəyyən irəliləyişin olacağına şübhə etmirəm.

**- Danışıqların gedişatında hansısa şərtlər irəli sürülə bilərmi? Ermənistan "şərt olmasın" deyərkən nəyi nəzərdə tutur?**

- İlk təmaslar və müzakirələrin baş tutması üçün heç bir şərt irəli sürülməməsi vacib idi. Əslində 44 günlük müharibədən və Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra Türkiyənin Ermənistandan yeganə tələbi qonşularla əməkdaşlığa başlamaqdır. Türkiyə ilə, daha doğrusu, türk xalqları ilə problemləri olan erməni tərəfidir. Ermənistan Türkiyəyə qarşı əsassız iddiaları qanuniləşdirib. Qondarma "erməni soyqırımı"nı əlində bayraq edərək Türkiyəyə qarşı daim qarayaxma kampaniyası aparıb. Məhz bu cür iddialar və Ermənistanın yanaşması müsbət təmasların və nəticəli müzakirələrin önündə əngəl olub. Türkiyə ilə qonşuluq münasibətlərinin tərəfdarı olan İrəvan hökuməti qeyd-şərtsiz öz absurd iddialarından vaz keçməlidir. Prosesi daha irəliyə daşımaq üçün sonrakı mərhələdə ermənilər öz yanaşmalarında və konstitusiyalarında redaktələr etməlidir. Saxta "soyqırım" iddiası ilə bağlı Türkiyə dəfələrlə Ermənistana ortaq komissiyanın yaradılmasını təklif edib. Ankara hökuməti bütün problemlərin çözülməsinin tərəfdarıdır. Daha əvvəl imzalanmış protokollarda bu məsələ əksini tapmışdı. Türkiyənin niyyəti xoşdur. Ermənistanın niyyətinin nə olduğu isə yaxın günlərdə bəlli olacaq.

**- Azərbaycan-Ermənistan arasında yekun sülh sazişi olmadan Ermənistan-Türkiyə sərhədlərinin açılması, münasibətlərin tam normallaşması nə dərəcədə mümkündür?**

- 2009-cu ildəki Sürix protokollarından fərqli olaraq bu dəfə Türkiyə hökuməti Ermənistanla danışıqları birbaşa rəsmi Bakı ilə koordinasiya edir. Sürix protokolları fonunda atılmış addımlar ciddi böhrana səbəb olmuşdu. 44 günlük savaşdan, xüsusən Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan-Türkiyə münasibətləri ən üst səviyyədə inkişaf etməkdədir. İndiki şəraitdə Ankara ilə Bakının qarşılıqlı koordinasiyası çox vacibdir. Sadəcə, Ermənistana münasibətdə deyil, bölgədə sülhün və təhlükəsizliyin təmini üçün iki ölkənin vəhdəti zəruridir. Əks halda proseslər yarımçıq və nəticəsiz qalar. Azərbaycanla Ermənistan arasında yekun sülh sazişi imzalanmadan Türkiyə-Ermənistan münasibətlərinin tam normallaşması qeyri-mümkündür. İki ölkə arasında sərhədlər açıla, gediş-gəliş və iqtisadi əlaqələr bərpa oluna bilər. Amma diplomatik münasibətlərin qurulması üçün Ermənistan həm Türkiyənin, həm də Azərbaycanın ərazi bütövlüyünü tanımalı, suverenliyini qəbul etməlidir.

**- Ermənistanın Türkiyəyə ərazi iddialarından söz açdınız. Paşinyan isə deyir ki, "İrəvanın Türkiyəyə ərazi iddiası yoxdur". Baş nazirin ərazi iddialarına və "soyqırım"a görə erməni diasporasını ittiham etməsi nədən xəbər verir?**

- Ermənistanın Türkiyəyə qarşı ərazi iddiaları ölkənin konstitusiyasında da əksini tapıb. Amma Paşinyan o məsələdə haqlıdır ki, bu iddiaların təməlində erməni diasporası dayanır. Əslində erməni diasporası iki yerə bölünüb - ABŞ-dakı qərb lobbisi və Rusiyadakı erməni diasporası. Hər iki diasporanın maraqları fərqlidir. Ermənistan əhalisi ilə xaricdəki lobbi qrupları arasında qarşıdurma yaşanmaqdadır. Göründüyü kimi İrəvan hökuməti, daha doğrusu, Paşinyan da xarici ölkələrdəki erməni diasporası ilə yola getmir. Rəsmi Bakı tərəf kimi Paşinyan hökumətini tanıyır. Bu mənada İrəvanın yanaşması daha məqsədəuyğundur. Ermənistan xalqı xaricdəki diasporadan fərqli olaraq dərk edir ki, indiki şərtlərlə yaşamaq mümkün deyil. Vəziyyət getdikcə ağırlaşmaqda, ölkə boşalmaqdadır. 30 illik işğal Ermənistana müsbət heç nə vermədi, əksinə, ölkənin tərəqqisinə mane oldu. Erməni ictimaiyyəti anlayır ki, Qərbin və Rusiyanın ianələri ilə bir ölkəni və xalqı ayaqda saxlamaq imkansızdır. Ermənistanın normal yaşaması üçün diasporanın maddi dəstəyindən daha çox özünün iqtisadi inkişafı önəmlidir. Ermənistanın dövlət kimi varlığını davam etdirməsi də bundan asılıdır. Bir neçə qonşusu ilə problem yaşayan, sərhədləri bağlı olan bir dövlət normal inkişaf edə bilməz. Yəni Türkiyə və Azərbaycanla münasibətləri düzəltmək ilk növbədə Ermənistanın özü üçün həyati əhəmiyyət kəsb edir. Paşinyan və komandası bu reallığı dərk etməyə başlayıb.

*"Ermənistan xalqı xaricdəki diasporadan fərqli olaraq dərk edir ki, indiki şərtlərlə yaşamaq mümkün deyil. Vəziyyət getdikcə ağırlaşmaqda, ölkə boşalmaqdadır. 30 illik işğal Ermənistana müsbət heç nə vermədi, əksinə, ölkənin tərəqqisinə mane oldu"*

**İsmayıl Qocayev**

# Qərbin oyunudur

## Sarkisyanın istefasının "məhdud səlahiyyətlə" əlaqələndirilməsi ciddi səbəb deyil

**İsmayıl Qocayev**



**Prezident Armen Sarkisyanın bazar günü istefa verməsinin səbəbləri barədə Ermənistanda spekulyasiyalar yayılır. Bəzilərinə görə, Sarkisyanın istefası Azərbaycan və Türkiyə ilə barışıq istiqamətində Ermənistan hökumətinin qəbul edə biləcəyi güzəştlərlə bağlıdır.**

Məsələn, parlamentdəki müxalif fraksiyanın sədri Seyran Ohanyan deyib ki, Sarkisyan yeni sənədlərə imza atmamaq üçün istefa verməyə məcbur qalıb. Digərlərinə görə isə o, yeni partiya lideri kimi fəaliyyətə başlaya bilər. Sarkisyan xarici siyasət və diaspor sahəsində çalışan, eyni zamanda Ermənistanın ərəb ölkələri ilə əlaqələrini inkişaf etdirən siyasətçi idi. Digər tərəfdən, onun İngiltərə, Vatikan və bir sıra ərəb ölkələri ilə yaxşı münasibətləri var idi. O səbəbdən istefası təəccüblə qarşılanır. İstefa qərarından sonra Armen Sarkisyanın həbs oluna biləcəyi xəbərləri də yayılmaqdadır. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin postundan istefa vermiş Armen Sarkisyanla bağlı araşdırmaya başlayacağı deyilir. Deyilənə görə, Sarkisyan prezident seçilənə qədər Sent-Kits və Nevis dövlətinin vətəndaşı imiş. Xatırladaq ki, 2021-ci ilin aprelində Ermənistan Baş Prokurorluğu Armen Sarkisyanın başqa ölkə vətəndaşı olması ilə bağlı cinayət işi açmışdı. Ermənistan konstitusiyasına görə, xarici ölkə vətəndaşlığı olan şəxs dövlət başçısı seçilə bilməz. Sarkisyanın vəzifəsindən istefa verməsi ölkədə yeni konstitusiyanın qəbulu məsələsini də aktuallaşdırıb. Sarkisyan istefasını belə əsaslandırıb ki, Ermənistanın mövcud konstitusiyası prezidentə hadisələrə təsir göstərmək və ciddi qərarlar qəbul etmək imkanı vermir. Ekspertlərə görə, Sarkisyanın bu addımı konstitusiyasını çoxdan dəyişərək, özü prezident olmağa çalışan Paşinyanın istəyinə "yaşıl işıq" yandırmış olur. Bu məqamı nəzərə alan siyasi şərhçilər hesab edirlər ki, Paşinyan özünün prezidentliyə yolunu açmaq üçün Sarkisyanı müxtəlif vasitələrlə istefaya məcbur edib.

### "Görünür, Qərb Paşinyanın vəzifədən getməsi halında onun yerinə "öz adamını" hazırlayır"

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Ermənistan prezidenti Sarkisyanın istefasının "məhdud səlahiyyətlə" əlaqələndirilməsi ciddi səbəb deyil. Ekspert bildirib ki, parlament onu bu vəzifəyə seçəndə Sarkisyan hansı hüquq və vəzifələrə sahib olacağını böyük ehtimalla yaxşı bilirdi:** "Əslində Sarkisyan bu vəzifədə heç də az iş görmürdü. O, prezident kimi Fransaya, Kiprə, Birləşmiş Ərəb Əmirliklərinə səfərlər etmişdi. Ermənistanla diplomatik əlaqələrin qurulması və inkişaf etdirilməsi istiqamətində önəmli addımlar atmışdı. Prezidentlik səlahiyyətlərindən maksimum istifadə etmişdi. Ancaq baş nazirin qərarlarına veto qoymaq və ya təsdiq etmək funksiyası simvolik xarakter daşıyırdı. Prezident hansısa qərara veto qoysa belə parlament onu rədd edə bilirdi. Hesab edirəm, istefanın səbəblərini Ermənistan daxilindəki proseslərdə axtarmaq lazımdır. Sarkisyanın Paşinyanla qarşı-qarşıya gəldiyi məqamlar çox olub. Xatırlayırsızsa, Sarkisyan keçmiş müdafiə nazirinin çıxarılmasına veto qoymuşdu və baş nazirin əleyhinə danışmışdı. Sarkisyan və Paşinyan qərbyönlü siyasətçi kimi tanınırlar. Paşinyan "Sorosçu"dur, Sarkisyan isə İngiltərə vətəndaşlığını daşıyıb. Amma onlar bir-birilərinə qarşı fiqurlar kimi təqdim olunublar. Bunun Qərbin oyunu olmaq ehtimalı yüksəkdir. Görünür, Qərb Paşinyanın vəzifədən getməsi halında onun yerinə "öz adamını" hazırlayır".

**A.Qasımova görə, konstitusiyaya dəyişikliklər yeni seçkilər və təlatümlər deməkdir:** "Ermənistanın indiki durumunda seçki qarşıdurmasının nəticəsi pis ola bilər. Paşinyanın növbəti seçkidən necə çıxacağı da məlum deyil. Riskə getmək Paşinyan üçün məqbul sayılmır. Onsuz da Ermənistanın gələcəyi hansısa erməni siyasətçisinin qərarlarından yox, ətraf dövlətlərin istəklərindən asılı olacaq. O baxımdan Sarkisyanın İngiltərədə sakit və təhlükəsiz həyat sürməsi, Ermənistanda qalıb başını ağrıtmaqdan daha məqsədəuyğundur".

# İran dirənişinin faydasız olduğunu anladı

## Artıq Tehran Zəngəzur dəhlizinə iqtisadi mənfəət gətirən bir platforma kimi baxır




**Yanvarın 24-də İran rəsmiləri işğaldan azad edilmiş ərazilərə səfər edib. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib. Xəbərə əsasən, onlar burda həyata keçirilən nəqliyyat və digər infrastruktur layihələr ilə tanış olublar.**

Qonaqlara Füzuli Beynəlxalq Hava Limanı barədə məlumat verilib, cəmi 9 ay ərzində inşa olunduğu diqqətə çatdırılıb. Sonra nümayəndə heyətləri Azərbaycanın Ermənistanla həmsərhəd Zəngilan rayonunda Beynəlxalq nəqliyyat marşrutunun bir hissəsi olan Horadiz-Ağbənd dəmir yolu layihəsi üzrə görülən işlərlə tanış olublar. Tanışlıq zamanı layihənin əhəmiyyəti haqqında danışılıb, İranın bu layihədə iştirakının vacibliyi vurğulanıb.

Onlar həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa edilməkdə olan ikinci hava limanı - Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinə baxıb. Eləcə də Zəngəzur dəhlizində inşa olunan avtomobil tunellərinə və Cocuq Mərcanlı qəsəbəsində dəmir yolu layihəsinə baxış keçirilib, avtomobil və dəmir yolu layihələri ilə bağlı təqdimatlar dinlənilib.

**Siyasi şərhçi Aqşin Kərimov İran rəsmilərinin işğaldan azad edilmiş ərazilərə səfərindən "Şərq"ə danışarkən Zəngəzur dəhlizi məsələsinə diqqət çəkib. Analitik bildirib ki, rəsmi Tehran əvvəldən bu dəhlizin iqtisadi aspektlərinə qarşı olmayıb:**

"Çünki Zəngəzur koridoru həm də İrana iqtisadi mənfəət gətirən bir platformadır. Burda rəsmi Tehranın qəbul etmədiyi məsələ dəhlizin sərhəd dəyişikliyi olmadan fəaliyyətə başlamasıdır. Cənub qonşumuz sərhəd dəyişikliyini hesablamamışdı. Buna görə sonradan Azərbaycanla arasında dəhliz məsələsində fikir ayrılığı yarandı. Rəsmi Tehran buna etiraz etsə də, faydasız oldu".

**A.Kərimov İranın Zəngəzur dəhlizi ilə bağlı etirazının faydasız olma səbəbini açıqlayıb:**

"Çünki bu dəhliz Azərbaycanla yanaşı beynəlxalq güclərin marağında olan və onların dəstəklədiyi bir platformadır. Onu Çin, Türkiyə, eləcə də Rusiya dəstəkləyir. Belə bir məqamda İran özünü sıxışdırılmış hiss etdi. Məcbur oldu ki, sərhəd dəyişikliyi paralelində olsa belə, bu dəhlizin əhəmiyyətini dərk etsin. Beləcə prosesdə öz səylərini də ortaya qoymağa başladı".

*Siyasi şərhçinin qənaətincə, İranın hazırda nümayiş etdirdiyi mövqe onun beynəlxalq sıxışdırılması və eyni zamanda Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqla bağlıdır.*

**Günəş Mərd**

# Gürcüstan Avroatlantik seçimini dəyişməyib

## Tiflisin son sərgilədiyi mövqe Moskvanın ciddi hiddətinə səbəb olacaq

**Çimnaz Şahlar**

**Qərbdəki tərəfdaşlar Buxarest sammitinin Gürcüstanla bağlı qərarını bir daha nəzərdən keçirməyi planlaşdırmır. Bunu Gürcüstanın Xarici işlər naziri David Zalkaliani yerli telekanala açıqlamasında deyib.**



O bildirib ki, Brüsseldə və Baltikyanı ölkələrdə keçirdiyi görüşlərdə, eləcə də apardığı telefon danışıqlarında Qərbdəki tərəfdaşları öz mövqelərinə sadiq olduqlarını bir daha təsdiqləyiblər. "Bizim seçimimiz Avro-Atlantik strukturlara tam inteqrasiyadır. Bu, gürcü xalqının sivil seçimidir və konstitusiyamızda da əks olunub", - D. Zalkaliani qeyd edib. Nazir vurğulayıb ki, Gürcüstan hökuməti öz mövqeyinin müdafiəsi üçün əlindən gələni edəcək.

**Mövzunu "Şərq"ə şərh edən siyasi şərhçi Turab Rzayev isə bildirib ki, Gürcüstanda Qərbə qarşı inamsızlıq var:**

"Əlbəttə, Gürcüstanın NATO-ya və Qərbə inteqrasiya etməsi mümkündür. Amma son dövrlərdə, xüsusilə İvanişvili hakimiyyətində Qərbə qarşı inamsızlıq və Rusiyaya müəyyən qədər yaxınlaşma hiss olunurdu. Ölkənin üzü şərqə doğru çevrilmişdi. İqtisadi əlaqələr və başqa münasibətləri hansısa şəkildə formalaşdırmağa çalışırdılar. Biz Rusiya ilə iqtisadi əməkdaşlığın genişlənməsinin şahidi olduq. Gürcüstanla Rusiya arasında yolların çəkilməsi, körpülərin, tunellərin açılması və xüsusilə son dövrdə Abxaziya dəmir yolunun açılmasını vurğulamaq olar. Eyni zamanda, İvanişvili Rusiyada varlanıb, orada sərvət qazanmış bir oliqarxdır. Aydın məsələdir ki, onun Rusiya ilə müəyyən bağları var. Onun dövründə Qərbin maraqlarına əks olan davranışlar baş verirdi. İvanişvilini ölkəni Rusiyaya satmaqla ittiham edirdilər. Hətta ona həbs olunan zaman verilən işgəncənin Putinin sifarişi olduğunu da deyirdilər".

**T. Rzayev son dövrlərdə Qərbdən gələn təzyiqlərin artdığını vurğulayıb:**

"Görünür ki, son dövrlərdə Qərbdən, xüsusilə də Avropa İttifaqı və ABŞ-dan gələn təzyiqlər artıb. Çünki hərbi olaraq onlar Gürcüstana müəyyən xeyir verirlər. Gürcüstanda havadan nəzarət sistemində də müəyyən xidmətləri var. Bundan başqa rəsmi Tiflis Qərbdən hərbi maliyyə yardımı alır. Buna görə də bütün bunlar Gürcüstanı seçim qarşısında qoyur".

**Siyasi şərhçinin fikrinə görə, bu vəziyyət Rusiya tərəfindən xoş qarşılanmayacaq:**

"Gürcüstanın belə bir açıqlama verməsi əlbəttə ki, Moskvanın ciddi hiddətinə səbəb olacaq. Kremlin buna qarşı addımları aqressiv ola bilər. Gürcüstan müəyyən bir müddət Qərblə birbaşa hərbi ittifaqa daxil olmayacağına söz verib. Rusiyanı buna inandırsa, ola bilsin ki, Rusiyanın hər hansısa təzyiqindən özlərini müdafiə etməyə də çalışa bilərlər. Belə bir versiya da mümkündür. Amma əlbəttə ki, Rusiya bunu xoş qarşılamayacaq və onun tərəfindən Gürcüstan hakimiyyətinə də problem yaradılacaq. Müxalifət partiyalarının birliyinin formalaşması və ya ölkədaxili qarışıqlıq yaranmasına da gətirib çıxara bilər".



# Sifarişli açıqlama...

## Paşinyanın sülh bəyanatının arxasında xüsusi məqsədlər var

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkəsinin Azərbaycanla sülh sazişi imzalamağa hazır olduğunu bildirib. Lakin baş nazir əlavə edib ki, bu sənəd danışıqlar prosesi nəticəsində tərtib olunmalıdır.**

Paşinyan xatırladıb ki, Ermənistanla Azərbaycan parlamentləri hələ 1992-ci ildə bir-birinin MDB çərçivəsində mövcud sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünü tanımaq haqqında sənədləri ratifikasiya ediblər. Ancaq baş nazirin fikrincə, bir çox məsələ və incəliklər həll olunmamış qalır və bunun üçün danışıqlar aparılmalıdır. Paşinyan qeyd edib ki, rəsmi İrəvan Ermənistan-Azərbaycan sərhədində təhlükəsizlik tədbirləri haqqında təkliflərini həm Moskvaya, həm də Bakıya təqdim edib: ”Təkliflər sərhədlərin demarkasiyasına deyil, sərhəddə təhlükəsizlik və sabitlik səviyyəsinin qaldırılması üzrə tədbirlərə aiddir. Söhbət, xüsusilə, mənim hələ 2021-ci ilin may ayında dediyim, ”qoşunların simmetrik şəkildə geri çəkilməsindən” gedir”.

Paşinyan təkliflər haqqında Azərbaycan Prezidentinə Brüssel görüşü zamanı məlumat verdiyini bildirib: ”Hazırda müzakirələr davam edir və biz müzakirə prosesinə zərər vurmamaq üçün onun təfərrüatlarını açıqlamaq istəmirik”. Baş nazir hesab edir ki, sərhədlərin demarkasiyası və delimitasiyası üzrə komissiya mümkün qədər tez yaradılmalıdır.

Siyasi təhlilçilərin qənaətincə, Paşinyan ”danışıqlar” deyərkən vasitəçi ölkələrin, Minsk qrupu həmsədrlərinin də prosesdə iştirakını nəzərdə tutur. Baş nazir əvvəllər də dəfələrlə bəyan edib ki, sülh müqaviləsi istiqamətində müzakirələr mütləq həmsədrlərin nəzarətində və qarantorluğunda getməlidir.

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ”Şərq”ə açıqlamasında bildirib ki, Paşinyanın problemlərin həllinə yönəlik metodlarının hamısı güc faktoruna söykənir. Analitik deyib ki, ermənilərin Qarabağ üzərində iddiaları ona görə sonlandı ki, 44 günlük müharibədə qalib gəldik:** ”Paşinyan təxminən eyni senaridən çıxış edərək sülh məsələsini gündəmə gətirir. Baş nazirin sülh müqaviləsi və sərhədlərə dair sənədə imza atması böyük məsuliyyət yaradır. Ancaq Paşinyan erməni cəmiyyətinə bunu məsuliyyət kimi yox, erməni hakimiyyətinin məcbur qalaraq yerinə yetirdiyi öhdəlik kimi təqdim etməyə, rəsmiləşdirməyə çalışır. İctimai rəyi hazırlayır ki, güclü Türkiyə ilə Azərbaycan arasında qalmış Ermənistanın başqa çıxış yolu yoxdur. Bu məcburiyyəti əsaslandıraraq, Ermənistanın arxasında Rusiyanın dayanması faktını önə sürür. Vurğulayır ki, əgər Ermənistanın arxasında Rusiya yox, Qərb dayansaydı, ermənilər müharibədə məğlub olmazdı. Baş nazir Rusiyanın Ermənistandakı maraqlarını, ictimai rəydəki yerini laxlatmağa çalışır”.

“Baş nazir çalışır ki, imzalayacağı müqavilənin məsuliyyətini özü yox, ordu üzərinə götürsün”

**Ə.Əlibəyliyə görə, Paşinyanın sülhə dair bəyanatlarının arxasında xüsusi məqsədlər dayanır:** ”Baş nazirin ”sülh müqaviləsi rəsmiləşdirilməlidir” ifadəsi göstərir ki, İrəvan hökuməti konkret addım atmağa məcbur edilir. Ona görə də baş nazir ”rəsmi öhdəliklərin” vacibliyindən danışır. Ermənistanda hakimiyyətin hərbi elita üzərində təsir imkanları yoxdur. Əlavə olaraq, hakimiyyət daxilində yaşanan proseslər, önəmli istefalar hökumət böhranının göstəricisidir. Paşinyan çalışır ki, imzalayacağı müqavilənin məsuliyyətini özü yox, ordu üzərinə götürsün. Bu, sülh müqaviləsi imzalandıqdan sonra sərhəddə baş verə biləcək hansısa təxribatın məsuliyyətini ordunun üzərinə yükləmək üçün zəruri şərtdir. Ümumilikdə isə xaosdan bəslənən bir siyasətçinin prosesdə xarici aktorların sayını artırmağa çalışması, ATƏT-in Minsk qrupunu danışıqlarda vasitəçi kimi gündəmə gətirməsi Qərbin sifarişidir. Həm Fransa, həm də ABŞ-dakı güclü erməni lobbisinin təzyiqləri Paris və Vaşinqtonu Qarabağ prosesində aktiv davranmağa məcbur edir”.

**İsmayıl Qocayev**

Çimnaz Şahlar



**”Siz dünən, eyni zamanda, Zəngəzur dəhlizinin yaradılması üçün aparılan işlərlə də tanış olmusunuz. Həm avtomobil yolu, həm dəmir yolu artıq uğurla inşa edilir və Ermənistandan da biz müsbət xəbərlər alırıq. Ermənistan öz tərəfində də bu işlərə start verməyi planlaşdırır”.**

# İstənilən halda Zəngəzur dəhlizi açılacaq

## Ermənistanın Azərbaycan və Türkiyə ilə barışmaqdan başqa yolu qalmadı

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının Yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edən zaman deyib.

”Bir sözlə, ümid edirəm ki, müharibədən sonrakı dövr bütün region üçün yeni imkanlar açacaq. Əlbəttə ki, İran İslam Respublikasının bu işlərə töhfəsi də çox önəmlidir”, - deyə dövlət başçısı əlavə edib.

**Ölkə başçısının ”Ermənistandan da biz müsbət xəbərlər alırıq” mesajının ”kodlarını” açan siyasi şərhçi Rusif Məmmədsoy ”Şərq”ə bildirib ki, Zəngəzur dəhlizi qlobal bir layihədir:**

”Ümumiyyətlə, Zəngəzur dəhlizi ilə bağlı Brüsseldə keçirilən üçtərəfli görüşdən sonra da müəyyən açıqlamalar verildi. O zaman ölkə başçısı bildirdi ki, Zəngəzur dəhlizi olmasa, Laçın dəhlizi də olmayacaq. Ancaq istənilən halda, Zəngəzur dəhlizi sadəcə Azərbaycan və digər regionların maraq dairəsində deyil. Eyni zamanda, qlobal bir layihədir. Çin, Avropa və ABŞ-ın da maraq dairəsində olan layihədir. Maraqlar üst-üstə düşdüyündən burada Ermənistanın mövqeyi o qədər də önəmli deyil. Amma istənilən halda dövlət başçısının bunu dilə gətirməsi təbii ki, Zəngəzur dəhlizinin açılması ehtimalını daha da artırır. Hətta Füzuli Hava Limanının açılışı zamanı Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı da boşuna deyildi. Dəhliz açılacaq, amma nə vaxt açılması hələ ki, bilinmir. İşlərin getdiyi ilə bağlı məlumatlar da var. Horadiz-Cəbrayıl dəmiryol xətti istifadəyə verilir”.

**Siyasi şərhçi sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı Ermənistan tərəfinin mövqeyinə toxunub:**

”Nikol Pasinyan bununla bağlı açıqlama verdi. O dedi ki, delimitasiya və demarkasiya prosesinə hazırdırlar. Artıq N.Paşinyan da başa düşür ki, Türkiyə və Azərbaycanla barışmadan Ermənistanın gələcəyi yoxdur. Qeyd edim ki, son zamanlarda, xüsusilə müharibədən sonrakı müddətdə Rusiyada ermənilərin leqal qeydiyyata alınması 11 faizdir. Bu, ermənilər üçün tarixi rekorddur. Təsadüfi deyil ki, Türkiyə-Ermənistan münasibətləri də normallaşır. Burada bütün proseslər Azərbaycanla koordinasiyalı şəkildə aparılır. Heç bir halda proseslər Azərbaycanın iradəsindən kənarda baş vermir. Azərbaycanla razılaşmadan Türkiyə tərəfi Ermənistanla bağlı heç bir addım atmır”.

**R.Məmmədsoy onu da əlavə edib ki, Ermənistanın Türkiyə ilə yaxınlaşması Rusiyanın Ermənistanda təsirini azaldacaq:**

”İstənilən halda, rəsmi İrəvan yaxşı başa düşür ki, başqa bir çıxış yolu yoxdur. Rusiya güclü dövlətdir, dünyanın aparıcı dövlətlərindən biridir, amma Rusiya Birləşmiş Ştatlar və yaxud Çin deyil. Rusiyanın elə iqtisadi resursları yoxdur”.



# "Bit bazarı"na kədər çöküb

## Hamı gileylidir, satan çox, alan yoxdur





Xanlar ƏLİBƏY

**Azərbaycanda əhali geyim-kecim, yemək, ləvazimatlar və s. üçün müxtəlif bazarlara üz tuturlar. İnsanlar əsasən məhsulun ya keyfiyyətinə, ya da ucuz qiymətə bazarlanmasına diqqət yetirirlər.**

Gündən-günə bahalaşan məhsulların qiyməti alıcını ucuz mallara qaçmağa vadar edir. Ucuzluğuna görə üz tutulan bazarlardan biri də Sabunçu rayonu ərazisində yerləşən ”Rus bazarı”dır. Həmçinin bura ”Bit bazarı” və ”Cındır bazarı” kimi də tanınır.

Ticarət mərkəzi həftənin şənbə və bazar günləri səhər saat 08:00-16:00 arasında fəaliyyət göstərir. Qiymətlərin ucuzluğuna səbəb məhsulların ikinci əl olmalarıdır.

Bazarda köhnə əşyalar, paltarlar, quşlar, video kasetlər, kitablar, ayaqqabılar, ətirlər, mis və alüminium qablar, samovarlar, vazalar, oyuncaqlar və s. satılır. Bir sözlə, burada iynədən-sapa hər şey var. Bazarda icarə haqqı 1 manatdan 5 manata qədərdir.

**”Şərq”in əməkdaşı vəziyyətlə yerində tanış olmaq üçün bazara baş çəkib.**

Bazara daxil olarkən satıcıların üzlərindən tökülən əzab, əziyyətləri görməmək mümkün deyil. Hər kəsin özünə görə dərdi, problemi var. Çətin həyat şəraitindən gileylənən vətəndaşların gözləri ”qan ağlayırdı”. Bir-iki manat üçün bazara üz tutduğunu deyən satıcılar sosial rifahlarının aşağı olması ilə bağlı ürəklərini boşaltdılar.

Ailələrinə çörək aparmaq üçün dan yeri sökülər-sökülməz evlərindən çıxaraq bazara gəlirlər. Yer tutmaq üçün səhər saat 5-də gəldiyini bildirənlər də var.

Ətrafdakı üfunət iyi, anti-sanitar vəziyyət insanı bazara girməmiş ürəyini bulandırır. Amma nə fayda... Burda alanın da, satanın da dərdi eynidir. Biri ucuz almaq istəyir, digəri tez satıb evinə yollanmağa tələsir. Satıcılar şəraitsizlikdən bezdiklərini dəfələrlə bildirdiklərini söylədilər.

Bazarda alıcı və satıcılarla həmsöhbət olduq.

**Ticarət mərkəzində ikinci əl paltar satan Lalə Məmmədova bildirib ki, alıcıların sayı getdikcə azalır:**

”Bazarda əsasən ikinci əl məhsullardır. Evimizdən gətirib satıram. Bəziləri zibillikdən də gətirirlər. Burada şərait çox pisdir. Yağış yağanda məhsullarımız da, özümüz də islanırıq. Səhərdən buradayam, heç 2 manat pul qazanmamışam. Satan çoxdur, alan azdır. Yer tutmaq üçün səhər saat 5-dən bura gəlirəm. Bazarda ən çox satılan dəmir-dümürdür. Paltar yaxşı satılmır”.

***Satıcı Mübariz Kazımov məhsulları evdən gətirib satdığını deyir:***

”İcarə haqqı müxtəlifdir. Mən 3-4 manat ödəyirəm. Satış bəzən yaxşı, bəzən pis olur. Xüsusilə Yeni il bayramından sonra bazarda satış çox zəiflədi. İnsanlar ən çox dəmir-dümür alır”.

Alıcılar əsasən antikvar əşyalar, dəmir qablar, ev əşyaları almağa gəldiklərini bildirdilər. Paltar barəsində soruşduqda isə onların üz ifadəsinin dəyişdiyini gördük. Buradan paltar almadıqlarını vurğuladılar.

*Alıcı İsa Məmmədov söylədi ki, antikvar əşyalar almağa gəlib:*

”Bu bazarda qiymətlər sərfəlidir. Digər yerlərdə yaxın düşə bilmədiyimiz məhsulları buradan ucuz alırıq”.

*Alıcı Ramin Məmmədov isə ev əşyaları almağa gəldiyini söyləyir:*

”Bazarda qiymətlər qaneedicidir. Ehtiyacım olan bütün əşyaları buradan alıram”.

***Bazarda quş satan Rəşad Şamilov bazardakı ad-havanı anlatdı:***

”Quşun satışında vəziyyət yaxşıdır. 50 quş gətirmişdim, çoxunu satmışam. Quşların qiyməti 3 manatdan başlayır, baha olanı da var. Məsələn, 5 manata var, 7 manata var. Əlavə edim ki, yaxşı quş bazara gec-gec çıxarılır. Əsasən zəif quşlar bazara çıxarılır. Alıcı isə quşun ucuzluğuna diqqət yetirir. Əvvəllər quş satışı sərfəli idi, amma indi sərf etmir. Çünki buğda bahalaşıb. Vəsaitimiz kifayə etmir”.

# Cərimələr artırılır

## Guya bununla dəm qazından zəhərlənmələrin qarşısını alacaqlar

**Qaz qurğuları və qaz xətlərinə, tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmət qaydalarının pozulmasına görə cərimələr artırılır. Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilir.**



**Elmar Nurəliyev:** “Tək cərimələrlə problem həll edilməz, geniş konsepsiya işlənib hazırlanmalıdır”

Dəyişikliyə əsasən, qeyd olunan pozuntuya görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək, hüquqi şəxslər isə iki min beş yüz manatdan üç min manatadək cərimə ediləcək. Cərimələrin artırılmasının həm də dəm qazından zəhərlənmələrin qarşısını alacağı da bildirilir. Dəm qazından zəhərlənmələrə mənzillərdə quraşdırılmış qeyri-standart qaz qurğuları, sobalar, hamam otaqlarındakı su qızdırıcıların, həmçinin qaz xətlərinə qanunsuz müdaxilələr, qaz şəbəkəsinə kortəbii qoşulmaların səbəb olduğu məlumdur. Lakin sakinlər soyuq havalarda qızınmaq üçün həyatlarını riskə atmalı olurlar. Çünki mənzilləri başqa üsulla isitmək mümkün deyil. Paytaxtda, eləcə də regionlarda mərkəzləşdirilmiş istilik sistemi çox az abonenti əhatə edir. İnsan qızınmaq üçün hansısa vasitədən istifadə etməyə məcburdur. Bu başqa problemdir ki, mərkəzi istilik sisteminə daxil olan binaların tüstü bacalarının təmizlənməsi lazımı qaydada həyata keçirilmir və nəticədə dəm qazından zəhərlənmə hadisələri baş verə bilir. Amma nəzərə alınmalıdır ki, paytaxtda kifayət qədər, hətta böyük sayda fərdi yaşayış evləri var və bu evləri sakinlər özləri - kim necə bacarır - şəraitə və maddi imkanına uyğun qızdırır.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev ”Şərq”ə açıqlamasında dəm qazından zəhərlənmələrin qarşısının alınması üçün geniş konsepsiyanın işlənib hazırlanmasına ehtiyac olduğunu dedi:**

- Tək cərimələrlə problem həll edilməz. Cərimələrin artırılması daha çox qaz xətlərinə qanunsuz qoşulmalar, təbii qazdan qanunsuz istifadələrin qarşısını almaq, həmçinin də zəhərlənmə təhlükəsini artıran səbəbləri, məsələn, tüstü bacalarının vaxtlı-vaxtında, heç olmasa, ildə 1 dəfə təmizlənməsi, texniki xidmətin düzgün aparılması və buna ciddi nəzarətin təmin edilməsi məqsədi daşıyır. Amma bu, məsələnin bir tərəfidir. Digər səbəblər də var. Hamımız bilirik ki, bazarda qeyri-standart qaz sobaları, su qızdırıcılar satışdadır. İnsanlar bunları alır, mənzildə, hamam otağında quraşdırır. Hətta mənzillərin içində istifadə edilən qaz sobaları, isitmə cihazları da çox zaman standartlardan kənar olur. Bu problemə təkcə fərdi evlərdə, həyətyanı sahəsi olan evlərdə rastlanmır. Bir çox yeni tikililər, yaşayış kompleksləri var ki, onlar da mərkəzi istilik sistemindən kənardır və sakinlər mənzillərini imkanları daxilində isidirlər. Kimisi qaz sobası ilə, kimisi kombi sistemi ilə. ”Pyatiminutka” adlanan qısa zamanda su isidə bilən cihazlardan da mətbəxdə, hamam otaqlarında da geniş istifadə olunur. Çünki binalar mərkəzi istilik sisteminə qoşulmayıb. Hesab edirəm ki, mütləq geniş konsepsiya hazırlanmalıdır və orada bütün bu problemlərin aradan qaldırılması yolları, risklər və səbəbləri də göstərilməlidir. Belədə problemə daha geniş yanaşma mümkün olacaq. Əlaqədar qurumlar çalışmalıdır ki, mərkəzləşdirilmiş istilik sisteminin şəbəkəsi genişlənsin və daha çox abonenti əhatə etsin. Bu, təhlükələrin minimuma endirilməsinə kömək edəcək. Vətəndaşlar da daim məlumatlandırılmalıdır. Məsələn, dedektorların faydası barədə məlumat verilməlidir. Dedektorlar təbii qazın yanmasında problem yarandıqda, yəni dəm qazı əmələ gəldikdə xəbərdarlıq siqnalı verir. Yaxşı olar ki, mənizllərdə dedektorlardan istifadə edilsin. Bu da təhlükəni azaldır, dəm qazından sığortalayır. Kompleks tədbirlərin həyata keçirilməsi risklərin aşağı düşməsinə səbəb olar. Əks halda, nə qədər ki, mərkəzi istilik sisteminə qoşulmalar azdır, dəm qazından zəhərlənmələr də olacaq, tələfat da.

*“Əlaqədar qurumlar çalışmalıdır ki, mərkəzləşdirilmiş istilik sisteminin şəbəkəsi genişlənsin və daha çox abonenti əhatə etsin. Bu, təhlükələrin minimuma endirilməsinə kömək edəcək"*

**Məlahət Rzayeva**

# Qanun layihəsi hazırlanır

## Şərhlərdə söyüş yazanlar cərimə oluna bilər








İnsanlar rəqəmsal dünyaya sürətlə inteqrasiya edərək sosial medianın subyektinə çevrilib. Sosial şəbəkələrin böyük faydaları var, xüsusən də məlumatın yayılması, biznesmenlərin marketinq fəaliyyəti üçün və s. Ancaq bir neçə istiqamətdə ciddi problemlər də mövcuddur. Bunlardan biri təhlükəsizlik məsələsidir. Heç bir ölkədə sosial şəbəkələrin konkret idarəetmə mexanizmi olmadığına görə burada baş verə biləcək təhlükəli məqamlara müdaxilə çətinləşir. Yüzlərlə insan aldadılaraq şəxsi məlumatları, bank hesabları və s. oğurlanır. Bəzən bu intihar hadisələrinin baş verməsi, ailələrin dağılması ilə nəticələnir".

### Ələsgər Məmmədli: "Hesab etmirəm ki, sosial media haqqında ayrıca bir qanuna ehtiyac var"

### Səbuhi Abbasov: "Bu, həssas məsələdir və yüz ölçüb, bir biçmək lazımdır. İlk növbədə insanlara başa salmaq lazımdır ki, burada sosial şəbəkədən istifadəyə qadağa ilə bağlı hüquqi mexanizm yaradılmır"

**Sosial şəbəkələrdə digər istifadəçilərə təhqiredici şərh və ismarıclar yazanlar artıq cəzalandırıla bilər. Milli Məclisdə rəqəmsal aləmdə insanların hüquqlarının qorunması üçün xüsusi qanun layihəsi hazırlanır.**

Milli Məclisin deputatı Elşad Mirbəşir Trend-in suallarına cavabında bildirib ki, BMT-nin İnsan Hüquqları Komitəsinin yanaşmasına görə internet və kiber məkanda söz və fikir azadlığı olmalıdır. Bu halda insan hüquq və azadlıqları haqqında beynəlxalq paktın 19-cu maddəsinin ikinci bəndinə istinad olunur. Həmin bənddə göstərilir ki, insanlar adi həyatda öz fikirlərini, düşüncələrini sərbəst bölüşmək hüququna malikdirlərsə, virtual həyatda da həmin hüquqlara malik olmalıdırlar.

"Bu zaman həmin beynəlxalq paktın 9-cu maddəsinin üçüncü bəndinə də istinad etmək lazımdır. Biz öz davranışlarımıza, fikrilərimizə görə adi həyatda məsuliyyət daşıyırıqsa, virtualda yazdıqlarımıza görə də məsuliyyət daşımalıyıq. Şəxs internetdə öz ideyalarını, fikirlərini, baxışını paylaşırsa, bu, heç bir halda başqa bir insanın hüquqlarının pozulması hesabına olmamalıdır.

Əgər mən başqa bir insanın hüquqlarını pozuramsa, buna görə məsuliyyət daşıyıram. Məsələn, kibermәkanda hüquqların qorunması vacib məsələdir. Bir müəllif özünün hansısa əsərini internetdə paylaşırsa, digərləri onun müəlliflik hüquqlarını qorumadan, istinad etmədən istifadə edirsə, onun hüquqlarının qorunmasının hüquqi normativ əsasları olmalıdır. Dünyanın bir çox təşkilatlarında belə bir yanaşma var ki, bütün dünya dövlətləri üçün işlək olacaq normativ hüquqi baza olmalıdır. Bu da kiberməkanda insan hüquqlarının qorunmasına imkan versin. Bu zaman əsas iki istiqamət nəzərdə tutulur. Birincisi, intenet məkanında insanın şərəf və ləyaqətinin alçaldan, peşəkar nüfuzuna xələl gətirən hallara görə məsuliyyət nəzərdə tutulsun. İkincisi isə kiberməkanda da dövlət, milli təhlükəsizliyə xələl gətirəcək məqamların qarşısı alınsın", - o bildirib.

Cəmiyyətdə yeni qanun layihəsinə münasibət birmənalı deyil. Eyni zamanda ekspertlər arasında da fikir ayrılıqları mövcuddur.

**Layihə ilə bağlı "Şərq"ə danışan media hüququ üzrə ekspert Ələsgər Məmmədli bu qanunun insanların ifadə azadlığını məhdudlaşdıracağını bildirib:**

"Ötən günlərdə Prokurorluq bəzi feysbuk istifadəçilərinin həbs edilməsi, cəzalandırılması və töhmət verilməsi ilə bağlı açıqlama yaydı. Belə çıxır ki, bunu qanunsuz ediblər? Əgər yeni qanuna ehtiyac olduğunu deyirlərsə, onların istinad etdiyi qanun nəyi təmsil edir? Bir gün içində bir çox insanı cəzalandırır, işini məhkəməyə göndərirlərsə, deməli, bir qanun var. Və həmin qanun ifadə azadlığını kifayət qədər məhdudlaşdırır. Bu gün qüvvədə olan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun çox bərbad şəkildə informasiya azadlığına müdaxilə edir. Sosial mediada insanlar mülahizələrinə görə həbs təhlükəsi ilə qarşı-qarşıya qalır, yaxud həbs olunur. Eyni zamanda yüksək məbləğdə cərimə olunur və ya Prokurorluq tərəfindən xəbərdarlıq alırlar.

Hesab etmirəm ki, sosial media haqqında ayrıca bir qanuna ehtiyac var. Bu gün kontentlə, yayılan məzmunla bağlı qüvvədə olan qanunvericilik kifayət qədər mühafizəkardır və ifadə azadlığını normadan artıq məhdudlaşdırır. Belə bir qanunun təşəbbüsü yolverilməzdir. Bu, Avropa İnsan Haqları Konvensiyası və Azərbaycanın qoşulduğu digər konvensiyalar, eyni zamanda konstitusiyamızın 47 və 50-ci maddələri baxımından məhdudlaşdırıcı kimi qəbul edilə bilər".

**Mövzuya münasibətini bildirən internet-media üzrə ekspert Səbuhi Abbasov isə bildirib ki, qanunvericilikdə bu barədə dəyişikliklərə ehtiyac var:**

"Son 5 ildə sosial şəbəkələr sosial media anlayışı ilə əvəzlənməyə başladı.

*Ekspertin sözlərinə görə, bir başqa problem isə sosial şəbəkə istifadəçilərinin, xüsusən də tanınmış şəxslərin, şirkətlərin işgüzar, siyasi və ya ictimai nüfuzuna xələl vurulması ilə bağlıdır:*

"Bütün dünyada bu problem ciddi şəkildə böyüməyə başlayıb. Bu barədə müxtəlif ölkələrin təcrübələri var. Məsələn, Çin bu prosesi qanuni şəkildə tənzimləyə bilməyəcəyini anlayaraq özünün sosial şəbəkəsini istifadəyə verdi. Dövlət özünün yaratdığı sosial şəbəkəni idarəetmə gücünə malikdir. Buna görə də qanun layihəsinin hazırlanmasında ilk növbədə beynəlxalq təcrübə dərindən incələnməlidir.

Dünayada sosial şəbəkələrlə bağlı vahid qanunvericilik olmadığına görə burada yazılan hər bir cümlə, fikir ifadə azadlığına aid edilir. Buna görə də Azərbaycanda bu qanunun qəbul edilməsi söz və ifadə azadlığının qarşısının alınması kimi təsəvvür yaradacaq. Bu, həssas məsələdir və yüz ölçüb, bir biçmək lazımdır. İlk növbədə insanlara başa salmaq lazımdır ki, burada sosial şəbəkədən istifadəyə qadağa ilə bağlı hüquqi mexanizm yaradılmır. Bu sadəcə bir insanın digərinin hüquqlarını tapdaladığı anda işə düşəcək və sosial şəbəkə istifadəçiləri həmin mexanizmin birbaşa iştirakçısı olacaq. Hər hansı bir şəxsin ictimai nüfuzuna qəsdən xələl gətirilib və ya hansısa bir məqsədlə təhqir olunubsa, mütləq hüquqi addım atılmalıdır. Bu qanun peşəkar hüquqşünaslar və vətəndaş cəmiyyətinin üzvləri ilə açıq şəkildə müzakirə olunmalı və cəmiyyətin qəbul edəcəyi formada qəbul edilməlidir.

Bu çox qəliz mexanizmdir. Vahid hüquqi baza qəbul olunsa belə onun yüz faizlik effektini gözləmək sadəlövhlük olar. Ancaq sosial şəbəkənin gücündən istifadə edib insanların və ya hansısa qurumların təhqir, təhdid edilməsi, alçaldılması kimi hadisələrin qarşısını almaq üçün qanunvericiliyimizə müəyyən əlavələrin edilməsi mütləq lazımdır. Bu, ən azından belə hadisələrin sayını azaldacaq".

**Sənan İsmayıl**




# Kiyev müharibə aparmaq imkanında deyil

## Əsas qarşıdurma Qərblə Rusiya arasında yaşanır

**Ukrayna və Rusiya arasında hərbi gərginlik 2014-cü ildə Krım yarımadasının Rusiya tərəfindən ilhaqından sonra ən yüksək səviyyəyə çatıb. Rusiya Ukrayna sərhədlərinə 100 mindən artıq qoşun toplayıb. Qərb dövlətləri və Ukrayna Rusiyanın tezliklə yeni işğala başlayacağını düşünür.**

Rusiyanın hərəkətlərindən narahat olan Qərb dövlətləri Ukraynaya hərbi yardımlar göndərir. Kanada və Böyük Britaniya Kiyevə xüsusi təyinatlı hərbi qulluqçular yerləşdirir. Bir neçə həftə əvvəl Qərb və Rusiya arasında təhlükəsizlik zəmanətləri ilə bağlı danışıqlar keçirilsə də, 3 dialoq prosesi nəticəsiz qalıb. Kreml işğal planlaşdırdığını inkar edir və iddia edir ki, NATO-nun Ukraynaya dəstəyi, o cümlədən silah təchizatı və hərbi təlimlərin artırılması Rusiyanın qərb cinahında təhlükələri artırıb. Münaqişə ilə bağlı 5 il ərzində demək olar ki, heç bir nəticə əldə edilməyib. Ara-sıra kiçik toqquşmalar baş verib. Ukrayna qüvvələrinin oktyabr ayında ilk dəfə olaraq Türkiyə istehsalı olan zərbə PUA-ları ilə separatçıların mövqelərinə zərbə endirməsi Rusiyanı qəzəbləndirib.

***"Bəzi məqamlarda Ukrayna proseslərdə demək olar ki, iştirak etmir. Kiyevin əvəzinə Qərb dairələri psixoloji və informasiya müharibəsi aparır"***

Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya ilə gərginliyi müzakirə etmək üçün Təhlükəsizlik Şurasının iclasını keçirib. Zelenski hər şeyə hazır olduqlarını bildirib: "Hakimiyyət gərginliyin azaldılması üçün çalışır. Biz tərəfdaşlarımız, diplomatlarımız və ən əsası hərbçilərimizin yanındayıq. Onlar bizi qoruyurlar və biz onları qorumalıyıq. Ukraynanın şərqində vəziyyət nəzarət altındadır. Panikaya ehtiyac yoxdur". Milli Müdafiə və Təhlükəsizlik Şurasının sədri Aleksey Danilov Təhlükəsizlik Şurasının iclasından sonra mətbuata açıqlama verib. O, Ukraynanın şərqində vəziyyətin nəzarət altında olduğunu bir daha vurğulayıb: "Mövcud vəziyyət bizə aydındır, təşviş üçün heç bir əsas yoxdur. Hər kəsdən sakit olmağı xahiş edirəm. Vəziyyət tamamilə nəzarət altındadır".

*ABŞ-ın Müdafiə Nazirliyinin rəsmisi Con Kirbi isə məlumat verib ki, Pentaqon Ukraynaya görə qoşunlarını yüksək döyüş hazırlığı vəziyyətinə gətirib:* "Ukrayna ətrafındakı vəziyyətə görə Pentaqon ABŞ ərazisində 8500 nəfərlik kontingenti Avropaya göndərilmək üçün yüksək döyüş hazırlığı səviyyəsinə gətirib. Lakin onların qitəyə göndərilməsi barədə qərar verilməyib". Kirbi əlavə edib ki, ölkə xaricindəki qoşunlar da yüksək döyüş hazırlığı səviyyəsinə gətirilib.

Britaniyanın Baş naziri Boris Conson bildirib ki, Ukrayna Rusiya üçün ikinci Çeçenistan ola bilər: "Biz Kremlə, Rusiyaya bildirməliyik ki, Ukraynaya təcavüz ağrılı, zorakı və qanlı bir iş olacaq. Düşünürəm ki, Rusiyadakı insanların buranın yeni Çeçenistan ola biləcəyini başa düşməsi çox vacibdir".

**Tərəflərin gərginliyini "Şərq"ə dəyərləndirən Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Miri deyib ki, hərbi toqquşma ehtimalı heç vaxt istisna edilmir. Analitikin fikrincə, hərbi qarşıdurma riskinin aradan qaldırılması üçün sadəcə bir tərəfin mövqeyi kifayət etmir:** "Bəzi hallarda kənar təsirlərlə, təxribat hərəkətləri ilə süni qarşıdurma yaradılır və vəziyyət gərginləşdirilir. Bir tərəfdə Qərbin geosiyasi maraqları varsa, digər yanda Rusiya ilə rəqabətdə olan başqa ölkələr var. Hazırda tərəflər arasında informasiya və psixoloji yöndə savaş gedir. Əsas qarşıdurma Kiyevlə Moskva deyil, Qərblə Rusiya arasında yaşanır. Bəzi məqamlarda Ukrayna proseslərdə demək olar ki, iştirak etmir. Kiyevin əvəzinə Qərb dairələri psixoloji və informasiya müharibəsi aparır. Bəzən hətta dezinformasiya mühiti də yaradır. Lakin ümumi anlamda Ukrayna böhranının səbəbkarı Rusiyadır. Qərb dövriyyəyə nə qədər dezinformasiya buraxsa da, hərbi qarşıdurmanın meydana çıxması Kremllə bağlıdır. Rusiya təkcə Ukraynanın cənub-şərqi ilə məhdudlaşmır. Eyni zamanda Belarusiya vasitəsi ilə Polşa sərhədinə də hərbi qüvvələr cəmləyir. Moskvanın bu cür addımları gərginliyi artırmağa xidmət edir. Rusiyanın Ukrayna məsələsində ədalətsiz mövqe sərgilədiyini bütün dünya ictimaiyyəti bilir. Qərb sadəcə Rusiyanın qərb sərhədlərində Moskvaya hansısa təhlükə yaradırsa, Kreml bunu "arxa bağçası" saydığı bir çox regionda həyata keçirir. Müstəqilliyini əldə etmiş dövlətlərin suverenliyinə təhlükə yaradır. Rusiya müstəqil postsovet ölkələrinə sərbəst şəkildə öz müttəfiqlərini seçmək haqqını vermək istəmir. Yəni Qərb ölkələrində bir günah varsa, Rusiya beş dəfə suçludur. Artıq Moskva özünün yaratdığı geosiyasi böhranın girovuna çevrilməkdədir. Nə geriyə çəkilə bilir, nə də irəli getməyə cürət edir. Kremlin yeganə çıxış yolu Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın vasitəçilik təklifini qəbul etməkdir".

**İsmayıl Qocayev**



# Revanşistlərin müqaviməti tükənir

## Artıq ölkənin baş naziri prezidentin istefasından sonra daha açıq danışmağa başlayıb

**Ermənistanın Baş naziri Nikol Paşinyan Prezident Armen Sarkisyanın istefasından bir neçə saat sonra terrorçu Araik Arutyunyanla görüşüb. Nikol Araiklə görüşündən sonra Rusiya sülhməramlılarının müvəqqəti müşahidəsi altında olan Azərbaycan ərazilərində yaşayan ermənilərə və onların qondarma təsisatlarına 144 milyard dram (təxminən 510 milyon manat -red) vəsait ayırdığını açıqlayıb. Görüş haqqında əlavə məlumat verilməyib.**

Erməni mediası və müxalif partiyaların təmsilçilərinin qənaətinə görə, Araiklə keçirdiyi görüşdən sonra təşkil olunan mətbuat konfransında Nikol Paşinyan bircə dəfə də olsun "öz müqəddəratını təyinetmə", "müstəqilliyi tanıma" "hüququndan" danışmayıb.

**Siyasi şərhçi Elçin Mirzəbəyli bildirib ki, Nikol Paşinyanın əleyhinə aqressiv şəkildə təbliğat aparan resursların sayında azalma hiss olunur. Analitikə görə, revanşçıların müqaviməti tükənir və Nikol Paşinyan da hakimiyyətdə köhnə komandanın hakimiyyətdəki son təmsilçisi Armen Sarkisyanın istefasından sonra daha açıq danışmaq qərarına gəlib:** "Nikolun son mesajlarında Türkiyə və Ermənistan diplomatlarının son təmasları da rol oynaya bilər. Bu məqam revanşçıların parlamentdəki təmsilçilərinin reaksiyalarından da hiss olunur. Onlar Paşinyanın Türkiyənin ərazi bütövlüyü ilə bağlı fikirlərinin həqiqətə uyğun olmadığını iddia edirlər. Sitat: "Paşinyan təsdiq edir ki, Ermənistanda hakimiyyətdə olan heç bir siyasi qüvvə Türkiyənin ərazi bütövlüyünü şübhə altına qoymayıb. Onun bu fikirlərini məlumatsızlığa, yaxud məsuliyyətsizliyə yozmaq olar. Yox əgər o, bu barədə məqsədyönlü şəkildə bəyanat veribsə, o zaman Nikol Paşinyanın fikirlərini erməni xalqına və dövlətinə qarşı atılmış addım kimi qiymətləndiririk. Bu isə vətənə xəyanətdir". Erməni müxalifəti, o cümlədən "Hayastan" blokunun liderləri iddia edirlər ki, 2011-ci ildə qondarma soyqırımın 100 illiyi ilə bağlı yaradılan "dövlət komissiyası Ermənistan adından bəyannamə qəbul edib. Həmin bəyannamdə isə qondarma soyqırımın beynəlxalq səviyyədə tanınması, nəticələrinin aradan qaldırılması və hüquqi iddiaların hazırlanması nəzərdə tutulub".

**E.Mirzəbəyli xatırladıb ki, 2011-ci ildə qəbul edilən bəyannamədə, Türkiyəyə qarşı ərazi iddialarının irəli sürülməsi ilə bağlı heç bir müddəa yoxdur:** "Yalnız ümumi, nəzəri mülahizələr var və Nikol Paşinyan, əslində doğru danışır. Revanşçıların iddialarının bəsitliyi, həmçinin ciddi rezonans doğurmaması Ermənistandakı ictimai rəyin süstlüyündən və mövcud reallıqları qəbul etməyə meyilli olduğundan xəbər verir. Məhz bu baxımdan, Ermənistanın yeni prezidentinin seçiləcəyi zamanadək olan dövrdə revanşçıların müəyyən qədər fəallaşa biləcəyini nəzərə alıb, informasiya pressinqini gücləndirmək, qənaətimə görə daha doğru olar. "Kökə"ni və "zopa"nı unutmamaq şərtilə...".

**İsmayıl Qocayev**

# Yeni ştamm ağ ciyərləri zədələmir

## "Ölənlərin əksəriyyəti "Omicron" yox, COVID xəstələridir

**COVID-19 virusunun yeni mutasiyasına yoluxmuş şəxslərin 7 günədək azaldılmış karantin müddəti yanvarın 24-dən əvvəl PCR test nəticəsi "müsbət" olan şəxslərə, onların müəyyən olunmuş "sıx təmaslı"larına da şamil edilir.**

Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə yaydığı məlumatda bildirilir. Qeyd olunur ki, "Omicron" mutasiyasının genetik xüsusiyyətlərini nəzərə alaraq vətəndaşlardan səhiyyə qurumlarının müəyyən etdiyi virusa yoluxma riskini azaldan göstərişlərə əməl etmələri xahiş olunur: "Aparılan tədqiqatların nəticələri bir daha göstərir ki, virusun yeni, sürətlə yayılan təhlükəli variantlarının yarada biləcəyi ağırlaşma hallarından qorunmağın ən effektiv yolu vaksinasiyadır. Əhalinin vaksinasiyada aktiv iştirakı nəticəsində Azərbaycanda epidemioloji vəziyyətin sabit qalmasına nail olunub. Səhiyyə qurumları vətəndaşlarımızı yayılan yeni ştammdan qorunmaq üçün gücləndirici ("buster") doza ilə vaksin olunmağa çağırır".

Qeyd edək ki, Baş nazir Əli Əsədovun yanvarın 22-də imzaladığı qərara uyğun olaraq Azərbaycanda COVID-19 xəstələri ilə təmasda olan şəxslərin karantin nəzarətinə götürülməsi qaydaları dəyişib. Qərara əsasən, "Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə qaydaları"na dəyişiklik edilib. Belə ki, karantin müddətində təmasda olan şəxsdə yoluxucu xəstəliyin simptomları aşkar edildikdə, həmin şəxs laboratoriya müayinəsindən keçiriləcək. Müayinənin nəticəsi pozitiv olduqda, həmin şəxs müalicəyə cəlb olunacaq. Qərarla "Yaşadıqları və ya olduqları yerdə karantin nəzarətinə götürülmüş şəxslərin laboratoriya müayinəsi bu qaydaya uyğun olaraq həyata keçirilirdi. Karantin nəzarətinin müddəti başa çatdığı vaxt aparılan müayinələrin nəticəsi neqativ olduqda, karantin müddəti başa çatmış hesab edilirdi. Karantin nəzarətinin müddəti başa çatdığı vaxt aparılan sonuncu laboratoriya müayinəsinin nəticələri əldə olunana qədər karantin nəzarətinə götürülmüş şəxsin yaşadığı və ya olduğu yeri tərk etməsi qadağan idi", bəndi isə ləğv edilib.

***Şahvələd Məmmədov: "Ümumilikdə karantin qaydalarının getdikcə yumşaldılması müsbət irəliləyişdən xəbər verir"***



**Yeni qaydaları "Şərq"ə şərh edən Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov qeyd etdi ki, Baş nazir tərəfindən imzalanmış qərar "Covid-19" və onun ştamları ilə bağlı ümumən dünyada müşahidə edilən müsbət tendensiyadan irəli gəlir:**

- Bütün dünyada karantin qaydaları, qadağalarda artıq yumşalmalara gedilir. Əlbəttə ki, bunun əsas səbəbi peyvəndlənmə və kütləvi immunitetin yaranmasıdır. Bu müsbət tendensiya nəzərə alınaraq virusa yoluxmuş şəxslərin karantin müddəti 14-dən 7 günə endirilib. Amma müstəsna hallar da var. Bu da xəstəliyin gedişatından asılıdır. Ola bilər ki, xəstədə halsızlıq davam etsin, xəstə tam sağalmamış olsun, bu zaman həkimin göstərişi ilə karantin müddəti artırıla bilər. Və xəstəyə əlavə bir 7 gün də karantində qalmaq məsləhət göstərişi verilər. Buna mütləq həkim qərar verməlidir. Ümumilikdə karantin qaydalarının getdikcə yumşaldılması müsbət irəliləyişdən xəbər verir.

**Ş.Məmmədov qeyd etdi ki, koronavirusun "Omicron" ştammı ağır fəsadlar törətmir:**

- COVİD-19-dan və "Delta" ştammından fərqli olaraq "Omicron" ştammı ağ ciyərləri zədələmir. Yuxarı tənəffüs yollarından ağ ciyərlərə nüfuz etmir. Yoluxmuş şəxs pnevmoniyaya məruz qalmır. COVİD-19-a yoluxmada ən təhlükəlisi məhz ağ ciyərlərin pnevmoniyası idi. İnsan tələfatına da çox zaman məhz bu amil səbəb olurdu. Azərbaycanda şükürlər olsun ki, ölüm halları da azdır. Amma bunu da deyim ki, hazırda vəfat edənlərin demək olar əksəriyyəti COVİD xəstələridir, "Omicron" ştammına yoluxanlar deyil.

**Həkim bildirdi ki, "Omicron" ştammının əsas əlamətləri halsızlıq, şiddətli baş ağrıları və həmçinin depressiv vəziyyətdir:**

- "Omicron" ştammına yoluxanlarda yüksək temperatur olmur. Əsasən baş ağrısı, halsızlıq və bir də psixo-nevroloji durumda dəyişiklik müşahidə edilir. "Omicron"a yoluxanların depressiv duruma düşməsi çox müşahidə edilir. Qorunma qaydaları da məlumdur, çalışaq, yoluxmayaq, yoluxdurmayaq.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi;**



# Xaricdə düşmənin qarşısına bu dəfə türk birliyi çıxacaq

## Erməni lobbisinə qarşı informasiya müharibəsində təkcə müdafiə deyil, hücum taktikalarından da istifadə edilməlidir

**Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, eləcə də erməni diasporunun və onları dəstəkləyən qüvvələrin ölkəmizə qarşı apardığı çirkin siyasətin qarşısının alınmasında xaricdə yaşayan azərbaycanlıların müstəsna xidməti var. Xüsusən, 44 günlük müharibədən sonra həmvətənlərimiz yaşadıqları müxtəlif ölkələrdə yüksək səviyyədə təşkilatlanmanın önəmini daha yaxşı dərk edirlər.**

Azərbaycan diaspora təşkilatlarının tərkib hissəsinə çevrilən həmvətənlərimiz xalqımıza, qardaş Türkiyəyə qarşı düşmənçilik və əsassız torpaq iddialarının, yalanla yoğrulmuş erməni ideologiyasının ifşa olunmasında ardıcıl və sistemli mübarizə aparırlar. Azərbaycan diaspora qurumları erməni lobbisinə qarşı mübarizədə qardaş Türkiyə ilə ortaq hərəkət edirlər. Ekspertlər vurğulayırlar ki, 2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Bəyannamənin əhatə etdiyi mühüm sahələrdən biri də birgə diaspora fəaliyyəti ilə bağlıdır. Təbii ki, türk xalqlarının ortaq lobbiçilik missiyasını sadəcə iki dövlət - Azərbaycan və Türkiyə deyil, bütün türk respublikaları həyata keçirməlidir. O baxımdan hesab edilir ki, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin diaspor təşkilatları vahid siyasət ətrafında fəaliyyət göstərməlidir. Əgər fəaliyyət geniş olarsa, uğurlar da kifayət qədər böyük olar. Dünya erməniləri Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsini həzm edə bilmirlər. Eyni zamanda qardaş Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi erməni lobbisini kəskin şəkildə aqressivləşdirib. Amerika Erməniləri Milli Komitəsinin (ANCA) idarəçiliyi ilə dünya erməniləri, xüsusən ABŞ-dakı erməni lobbisi anti-Azərbaycan və anti-Türkiyə fəaliyyətini planlı şəkildə davam edirlər. Vətən müharibəsi zamanı Amerikanın 100-dən çox senatoru və konqresmeni Ağ Evi Ankara və Bakıya yardımı dayandırmağa, sanksiya verməyə çağırış ediblər. Ermənilər qondarma "erməni soyqırımı" ilə bağlı 1 milyondan artıq məktubu Ağ Evə və Konqresə göndəriblər. Erməni diasporunun ideoloji mərkəzi hesab olunan ANCA 2021-ci ildə bu baxımdan daha da fəallaşıb. Erməni lobbisinin türk dünyasına qarşı təbliğatının önünü almaq üçün Azərbaycanda ciddi layihələr hazırlanır. Mühüm layihələrdən biri də "Erməni lobbisinə qarşı türk birliyi" layihəsidir.

**Layihənin aktuallığı və ictimai əhəmiyyəti barədə "Şərq"ə danışan Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri, tanınmış jurnalist Fuad Hüseynzadə deyib ki, Vətən müharibəsindən sonra dünya erməniləri tərəfindən xaricdəki azərbaycanlılara və türklərə qarşı terror, sui-qəsd, təxribatlar və iqrçi hücumları daha da artıb. Ekspertin sözlərinə görə, ermənilər xaricdə Azərbaycana və Türkiyəyə qarşı qarayaxma kampaniyaları da aparmağa üstünlük verirlər:** "Erməni lobbisi müxtəlif ölkələrdə Azərbaycan və Türkiyənin diaspor üzvlərinə də fərqli yollarla təzyiq edir və ya etdirirlər. Məsələn, ermənilər xarici mediada azərbaycanlıları və türkləri qatı millətçi kimi qələmə verirlər. Həmçinin, onların işlədiyi yerlərə və ya təmsil olunduqları partiyalara şikayət edirlər. Bununla yanaşı diplomatik korpus və səfirliklərdə təxribatlar törədirlər. Ermənilər azərbaycanlı və türk diaspor üzvlərinə qarşı sosial mediada da qarayaxma kampaniyası aparırlar, onları təhdid edirlər. Bunlar Azərbaycan və Türkiyə diasporunun inkişaf tempini aşağı sala bilər. Erməni lobbisinin hədəfi bir millət və iki dövlətin diasporunun xaricdə nüfuzunu gözdən salmaq, ümumiyyətlə, türk xalqlarının birliyini zədələməkdir. ANCA türk dünyası ilə bağlı öz qarşısına çox kəskin prioritetlər qoyub və artıq terror təşkilatı imici yaradır. Buna görə də dünyadakı erməni separatçı qurumların fəaliyyəti daimi nəzarətdə olmalı və onların planlarına qarşı bütün türk dünyasının cavab tədbirləri görülməlidir. Məhz bunlara cavab olaraq "Erməni lobbisinə qarşı türk birliyi" layihəsinin həyata keçirilməsini zəruri hesab edirik".

*F.Hüseynzadə layihənin məqsədindən və qarşıya qoyulan vəzifələrdən danışıb:* "Layihənin məqsədi bütün türk xalqlarını və diasporlarını anti-türk fəaliyyətinə qarşı, o cümlədən erməni lobbisinə qarşı birləşdirməyə, onların konsolidasiya olunmasına, müdafiə gücünün artırılmasına töhfə verməkdir. Eyni zamanda layihədə məqsəd erməni lobbisinə qarşı türk dünyasını mütəşəkkiləşdirmək və ayağa qaldırmaqdır. Layihə çərçivəsində əsas vəzifəmiz Şuşa Bəyannaməsində qardaş Türkiyə diasporu ilə Azərbaycan diasporu arasında sıx əlaqələrin formalaşması məsələsinə dayanaraq fəaliyyət göstərməkdir. Türk xalqlarının diasporlarının həmrəyliyi üçün çalışacaq, erməni terrorunu ifşa edəcək, türk xalqlarının beynəlxalq ictimaiyyətə müxtəlif dillərdə səsini duyurması prosesini həyata keçirəcəyik. Həmçinin xarici mediada məqalələri yazacaq jurnalistlər, təlimçilər və ekspertlər araşdırılıb müəyyən olunacaq. Dünya türklərinin həmrəyliyi, Türkiyə və Azərbaycanın tarixi həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması mövzusunda beynəlxalq media üçün 10 məqalə hazırlanacaq".

**Jurnalist bəyan edib ki, layihə çərçivəsində 12 analitik "Youtube" verilişi hazırlanacaq. Verilişlər ingilis və rus dillərində 5-10 dəqiqə arasında olacaq. Bu verilişlərdə aşağıdakı mövzulara toxunulacaq:** "Ermənilərin etnik təmizləmə siyasətinin ifşası, türk dövlətlərində erməni cinayətləri faktoru, terror təşkilatlarında erməni izi, ANCA-nın Türkiyənin mübarizə apardığı terror təşkilatları ilə əməkdaşlığı və digər məqamlar qabardılacaq. Layihə ilə bağlı tədbirlər Bakı, Kiyev, Minsk, Kazan, Saloniki və Oslo (onlayn) şəhərlərində keçiriləcək. Layihə çərçivəsində görüləcək fəaliyyətlərin davamlı olması üçün strateji qurumun yaradılmasına ehtiyac var. Bu layihənin davamı olaraq perspektiv planda türk xalqlarının haqlarının müdafiəsi və bu istiqamətdə önləyici fəaliyyət aparmaq üçün strateji qurumun yaradılmasına çalışacağıq. İlkin olaraq bu təşkilatın adının "Türk Xalqlarının Strateji Müdafiəsi Qurumu" olmasını nəzərdə tutmuşuq. Həmsədr formasında idarə olunacaq təşkilata hər türk dövlətindən bir nümayəndə təyin ediləcək. Fikrimizcə, erməni lobbisinin terrorçu, separatçı və cinayətkar fəaliyyətlərini dünyaya bəyan etmək lazımdır. Bu baxımdan informasiya müharibəsində böyük əks-səda verə bilən trendlər yaradılmalıdır. Bunun üçün türk xalqlarının əlində kifayət qədər resurslar var. Bu baxımdan təbliğat işi informasiya müharibəsi üzərindən aktiv aparılmalıdır. Erməni lobbisinə qarşı informasiya müharibəsində təkcə müdafiə deyil, hücum taktikalarından da istifadə edilməlidir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# NATO qüvvələri sərhədə yaxınlaşır

## Belə getsə Ukrayna-Rusiya toqquşması artıq qaçılmaz olacaq



**ABŞ Dövlət Departamenti Ukraynadakı səfirliyin əməkdaşlarının ailələrinin köçürülməsi barədə göstəriş verib. Bu barədə "Fox News"un jurnalisti Lukas Tomlinson məlumat yayıb. Məlumata görə, səfirliyin 7 əməkdaşının ailə üzvlərinin köçürülməsi yanvarın 24-dən başlayaraq həyata keçirilib.**

Daha əvvəl "Bloomberg" adları açıqlanmayan mənbələrə istinadən xəbər verib ki, yaxın günlərdə ABŞ səfirliyinin əməkdaşlarının ailə üzvlərinin məcburi köçürülməsi planlaşdırılır.

**ABŞ səfirlərinin və diplomatlarının Ukraynadan çıxarılması ilə bağlı "Şərq"ə danışan BDU-nun professoru, siyasi elmlər doktoru Sabir Məmmədli Rusiya və Qərb ölkələri arasındakı gərginliyi ən vacib beynəlxalq məsələ kimi dəyərləndirib:** "Ümumiyyətlə, Rusiya ilə Qərb ölkələri arasında münasibətlərin gərginləşməsi hazırkı dövrdə ən mühüm beynəlxalq məsələlərdən biri hesab olunur. Bununla əlaqədar olaraq, ABŞ Ukraynanın ərazi bütövlüyünün dəstəklənməsinin davamı kimi fəaliyyət göstərir. Nəzərə almaq lazımdır ki, Ukrayna rəhbərliyi də öz ərazi bütövlüyünün təmin edilməsi istiqamətində var gücləri ilə çalışır. Bu mənada rəsmi Kiyev çalışır ki, Qərb ölkələrindən, ilk növbədə Avropa İttifaqı və NATO üzvlərindən hərtərəfli dəstək əldə etsin. Bu prosesin davamı olaraq hazırkı mərhələdə ABŞ və Qərb ölkələri sadəcə olaraq Rusiyanı diplomatik müstəvidə neytrallaşdırmağa çalışırlar ki, əgər Ukrayna Donbassda və Luqanskda antiterror əməliyyatı keçirsə, Rusiya açıq şəkildə separatçı rejimə dəstək verə bilməsin. Bunun üçün də ilk növbədə Rusiyanı diplomatik müstəvidə neytrallaşdırmaq lazımdır. Bu səbəbdən ABŞ və Qərb ölkələri ciddi fəaliyyət göstərirlər. Bunun davamı olaraq onlar Ukraynaya hərbi yardım göstərməyə başlayıblar. Bu da bir daha onu təsdiq edir ki, Ukrayna ərazi bütövlüyünün təmin olunması istiqamətində ciddi fəaliyyət göstərir. Nəzərə almaq lazımdır ki, ABŞ və Rusiya arasında gərginlik bütünlükdə təhlükəsizlik problemlərini əhatə edir. Çünki NATO qüvvələri və sərhədləri artıq Rusiyanın sərhədlərinə yaxınlaşmaq üzrədir. Rusiya qabaqlayıcı addımlar atmağa çalışır. Bu səbəbdən belə bir gərginlik yaranıb".

**S.Məmmədli Rusiyanın ABŞ tərəfindən atılan addımları anladığını söyləyib:**

"Rəsmi Moskva anlayır ki, ilk növbədə ABŞ Rusiyanı diplomatik müstəvidə neytrallaşdırmaga çalışır. İkinci mərhələdə Ukrayna hərbi əməliyyatlara başlamaq imkanları əldə edə bilsin deyə bu addımların atıldığını başa düşür. Bu mənada diplomatik təzyiq həm də masa üzərində məsələlərin müzakirəsi zamanı da olur. Gərgin fon yaratmaq üçün təkcə ABŞ yox, bəzi Qərb ölkələri də diplomatlarına qeyri-rəsmi göstəriş verib ki, ölkəni tərk etsinlər. Bu proses gündəmdədir. Məlum fakt onu göstərir ki, Ukrayna-Rusiya toqquşması qaçılmaz olacaq. Bundan əlavə gələcəkdə diplomatlara, səfirlərə qarşı da müəyyən təxribat və terror aktları baş verə bilər. Bu səbəbdən diplomatlar və onların ailələrinin çıxarılması barədə göstəriş verilib".

**Çimnaz Şahlar**



# Vətəndaşlar rəğbətlə qarşılayacaq

## Müvəqqəti qeydiyyatın ləğv edilməsi bir çox problemləri həll edəcək

**Vətəndaşların müvəqqəti qeydiyyatı ləğv edilib. Maraqlıdır, səbəb nədir? Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, məqsəd mövcud pərakəndəliyi aradan qaldırmaqdır:**

"Qeydiyyatda olan şəxslər barədə hərbi səfərbərlik, sosial müavinət, icbari sığorta, evlənmə-boşanma və ya digər məsələlərlə bağlı polis orqanlarına sorğular daxil olur. Bununla bağlı bəzi neqativ hallar müşahidə olunub. Müvəqqəti qeydiyyatda olan şəxsləri lazım olanda tapmaq çətinliyi yaranıb. Hazırda görülən tədbirlərin məqsədi bu cür neqativ halların qarşısının alınması, bu istiqamətdə nizam-intizamın yaradılmasıdır.

Heç bir yerdə qeydiyyata düşə bilməyən vətəndaşlar hazırda yaşadıqları ərazi üzrə polis orqanına müraciət edib, yaşayış ünvanı bildirməlidirlər. Bu halda qeydiyyat məsələsinə təkrar baxıla bilər".

**Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Allahverənov "Şərq"ə açıqlamasında bildirib ki, müvəqqəti qeydiyyat məsələləri dövlət qanunvericiliyi ilə tənzimlənir:** "Amma müşahidələrə əsasən demək olar ki, insanlar qanunvericiliyin tələblərinə uyğun, yaşadığı yer üzrə qeydiyyata düşməyirlər. Yaxud da yaşayış yerini dəyişirlər. Qaydaya müvafiq yerli hüquq-mühafizə orqanlarına müraciət edərək müvəqqəti yaşama icazəsi əldə edilməlidir. Təəssüf ki, bundan çox istifadə edilmir. Az faiz nisbəti ilə vətəndaşlarımız həmin qanunun qaydalarına uyğun qeydiyyata düşürlər. Azərbaycan urbanizasiyanın inkişafı yüksək olan dövlət hesab olunur. Yəni ölkəmizdə kəndlərdən şəhərlərə axın kifayət qədər çoxluq təşkil edir. Əvvəlki illərdə bu mənada daha çox artım görünüb. Amma bundan sonra geriyə dönüş prosesi baş verir. Kəndlilərlə şəhərlilər arasında bir növ daxili miqrasiya mübadiləsi mövcud idi. İnsanlar qeydiyyat üçün hüquq-mühafizə orqanlarına üz tutaraq ev sahibi ilə müvafiq yolla müqavilə bağlayıblar. Lakin reallıqdır ki, iki-üç həftəlik, bir aylıq gəlirlərsə, müvəqqəti qeydiyyata düşməyiblər. Bundan başqa, digər məsələlər də var ki, dövlət qurumları üçün də problemlər yaradır. Şəxsin dövlət qarşısında hər hansı öhdəliyi varsa, ən optimal yol mövcud resurslardan istifadə edərək onu tapmaqdır. Hazırda mobil rabitə sistemi kifayət qədər inkişaf edib. İndiki informasiya dönəmində insanla operativ əlaqə qurmaq mümkündür. Bu gün əksər vətəndaşların sosial şəbəkə hesabları var. Hətta bir neçə platformada şəxslə bağlı informasiyalar mövcud olur. Müvəqqəti qeydiyyatın ləğv edilməsi müəyyən mənada vətəndaşların rəğbətlə qarşılayacağı bir məsələ olacaq. Bəzi müşahidələr və keçirilən daxili miqrasiya ilə bağlı görüşlərdə vətəndaşların bizə hər zaman dediyi fikirlərindən biri məhz budur".

**Sücayət Mehti**

# Mikrofonu unutdu

## Bayden jurnalistə söyüş söydü



**ABŞ Prezidenti Co Bayden mikrofonu unudaraq iclasda jurnalistə qarşı nalayiq ifadə işlədib.**

"Şərq" xarici KİV-ə istinadən xəbər verir ki, Co Bayden bu ifadəni "Fox News" müxbirinə qarşı işlədib.

Bazar ertəsi keçirilən mətbuat konfransı zamanı Donald Trampa yaxınlığı ilə tanınan "Fox News" kanalının müxbiri Piter Duki ABŞ prezidentinə sual ünvanlayıb: "Sizcə, aralıq seçkilərdə inflyasiya Demokratik Partiya üçün siyasi problemdirmi?".

Mikrofonun açıq olduğunu unudan Bayden cavabından sonra nalayiq ifadədən istifadə edib. Hadisədən sonra müxbir Fox TV-yə bildirib ki, Bayden ona zəng edərək bunun şəxsi bir şey olmadığını deyib.

**Çimnaz Şahlar**

# Arman Tatoyan daha aranı qarışdıra bilməyəcək

## Nəhayət, Nikol öz namizədini bu posta gətirməklə ondan xilas oldu




**"Ermənistanda hakim "Mülki müqavilə" fraksiyasının namizədi, ədliyyə nazirinin müavini Kristine Qriqoryan yeni ombudsman seçilib".**

Bu barədə "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, 2016-cı ildən ombudsman kimi fəaliyyət göstərən Arman Tatoyan bu postla sağollaşıb: "Arman Tatoyan müharibədən sonra Azərbaycana qarşı qondarma ittihamları ilə məşhurlaşmışdı. Mütəmadi olaraq sərhəd bölgəsində Azərbaycan Ordusunun "hücumları" ilə bağlı iddialar irəli sürürdü. Hətta Ermənistan Müdafiə Nazirliyi bir neçə dəfə ombudsmanın iddialarını təkzib etməyə məcbur olurdu. Ermənistanda İrəvan-Bakı, İrəvan-Ankara münasibətlərinin mümkün normallaşmasına qarşı ən çox təbliğat aparanlardan olan Arman Tatoyan Paşinyan hakimiyyəti üçün də "başağrısı"na çevrilmişdi. Nəhayət, Nikol öz namizədini bu posta gətirməklə ondan xilas oldu".

**İsmayıl**



# "Telekanallar məni yaxın buraxmırlar"

Kamran Həsənli: "Televiziyamız milli dəyərləri, düşüncələri olmayanların və yaxud nifrət edən insanların əllərində cəmləşdi"

**Bu dəfə "Şərq"in qonağı tanınmış jurnalist Kamran Həsənlidir. Onunla çox mövzulardan danışdıq. Televiziyaların bugünkü durumundan tutmuş iç və xarici siyasətə qədər... Hiss olunurdu ki, müsahibimizin ürəyi doludur. Vulkan kimi püskürməyə bir yer olmalıdır. Məsələn, televiziya kanalı. Ancaq onu da üzünə qapayıblar. Bu haqda bir az sonra...**

**- Öncə Azərbaycan efir məkanından başlayaq, telekanallarımızın efir setkası ilə razısınızmı? Nələr var və əslində nələr olmalıdır?**

- Azərbaycan efirləri bərbad haldadır, cəmiyyətə heç nə qazandırmır. Televiziya aparıcılarının, proqramların peşəkarlığı, eyni zamanda tamaşaçını düşündürəcək yumor, şou proqram, siyasi verilişlər olmalıdır. Televiziyanın formatını biz icad etməmişik, Amerikada icad olunub. Əyləncə və informasiya xarakteri daşıyır, cəmiyyətin güzgüsüdür. Əhali efirə baxıb özünə, mədəniyyətinə, dilinə nifrətlə yox, sevgi ilə yanaşmalıdır. Aparıcıların səs tonundan tutmuş xarici görünüşünə qədər məsələlər önəmli məqamlardır. Amma bizim televiziyamız əyri güzgüdür. Əhali baxıb əksini görmür. Cəmiyyətin lazımsız, eybəcər xüsusiyyətlərini göstərir deyə, toplum da nifrət bəsləyir. Monitorinq aparsaq, görərik ki, 100-də 98 faiz insan nəinki televiziyanı izləmir, nifrət edir.

**- Bir zamanlar intellektual şou verilişlərinin aparıcısı olmusunuz. Haray-həşir deyil, intellektual "qidalandırma" ilə məşğul idiniz. Bəlli bir səviyyəsi olan müğənnilər də qonaq olurdular. İndi isə belə verilişlər kasaddır...**

- Hazırkı televiziyamız özünü arsızlığa qoyub, necə ki, KVN təmsilçilərimiz özlərini arsızlığa qoymuşdular. Bütün xalq qınayır. Çıxıb üzr istəyib, "Səhvdir də, etmişik" deməkdənsə, həyasızcasına davranırlar. Guya, hər şey normaldır. Bunların quruqları görünmür, özlərini o hala salıblar. Televiziyamız da belədir. Bütün kanallar Kamran Həsənliyə qarşı koalisiya təşkil ediblər. Ümumiyyətlə, məni yaxın buraxmırlar. Bir atalar sözü var, deyirlər: Bağbanı bağa buraxmırlar. KVN-çilərə də söyləyirlər ki, sizi söyürlər, nifrət bəsləyirlər. Onlar da "Nə olsun, nə olsun" deyirlər. Elə bilirlər, tamaşaçının izləyib söyməsi, tüpürməsi reytinq deməkdir.

**- Efir məkanımızı şou cameəsi "bəzəyir". Sanki insanların düşüncəsini şou-biznesə kodlaşdırmaq istəyirlər...**

- Bizdə nə şou var, nə də biznes. Şou-biznes dünyada induksiyadır, sənaye kimidir. Orada çox böyük pullar dönür. Cəmiyyətə təsir edəcək fiqurlar yaranır. Dünyanın inkişaf etmiş ölkələrində sənətçilərin böyük hörməti, izzəti, azad fikri, düşüncəsi mövcuddur. Amerikada, Fransada, Almaniyada, elə Türkiyənin özündə də sənətçilər millət vəkillərindən yüz dəfə zəngindirlər. Azərbaycanda isə tərsinədir. Bizdə toy biznesi var idi, indi o da yoxdur. Sənətçinin işi toya gedib pul qazanmaqdan ibarət idi. Belə şou-biznes olmur. Birbaşa adını toy biznesi qoymaq lazımdır. Bugünlərdə o da yoxa çıxıb.

2000-ci ildən təxminən 2010-cu ilə qədər televiziya yarada bilmişdik. Azərbaycan sənətçiləri cəmiyyətin içində böyük hörmət qazanmışdılar. Hər ulduzun özünün həqiqi fanat ordusu vardı. İstər reper, istərsə də pop musiqi ifaçısı kimi təbliğ edirdiksə, həmin vaxtlar sənətçilərə böyük rəğbət bəslənilirdi.

**- Sonra nə oldu, düzən niyə pozuldu?**

- Təxminən 2008-ci ildən sonra konsept dəyişdi. Televiziyamız milli dəyərləri, düşüncələri olmayanların və yaxud nifrət edən insanların əllərində cəmləşdi. Sonra televiziyaya ailə mübahisələri, olmayan şou-biznes adıyla sənətçilərin altpaltarından danışmaqları, şər atmaqları, bir-birləri ilə qalmaqalları yayımlanmağa başladı. Onsuz da şou-biznes yox idi, üstəlik sənətçilər də hörmətdən düşdü. İndi müğənnilərin əksəriyyətinin nəinki fanat orduları var, əksinə, televiziya qədər nifrət qazanıblar. İnsanlar onlara əqidəsiz biri kimi yanaşır.

**- Son günlər ən çox müzakirə olunan məsələlərdən biri də çörəyin qiymətinin bahalaşmasıdır. Təqaüdlər və müavinətlərdə artımlar oldu. Yaxşı, bəs, günəmuzd işləyənlərin maaşı artmadı, onların aqibətləri necə olacaq? Bahalaşmanın təhlükələri televiziyalarımızda əks olunurmu?**

***"İndi nəinki müğənnilərin əksəriyyətinin fanat orduları var, əksinə, televiziya qədər nifrət qazanıblar. İnsanlar onlara əqidəsiz biri kimi yanaşır"***

- Millətin sadə nümayəndəsi kimi evimdə işıq, qaz yanır, çörək alıb aparıram. Qiymət bahalaşmasından təbii ki, narazıyıq. Razı olmaq mümkün deyil. Ona görə də ümumi qiymət siyasətində islahatlar aparılmalıdır. Ümumiyyətlə, ölkədə dərin islahatlar getməlidir. Biz proqramlarımızda siyasilər, millət vəkilləri ilə islahatların aparılması barədə danışırdıq. Bunu gecikdirmək olmaz. Bizdə islahatlar hələ ki gecikir. Dünyada proseslər sürətlə inkişaf edir. Artıq dünya qütbləşib. Burada mövqe bildirmək zamanı gəlib çatıb. Ukraynadakı prosesləri, NATO-Rusiya qarşıdurmasını görürük. Düzdür, Rusiyanın NATO ilə qarşıdurmasında gücü yoxdur. Amma aqressiyanı əsdirir, təhlükə yaradır. Azərbaycan bu gün islahatlara getməlidir. Tərəqqipərvər, inkişaf etmiş dövlətlərin sırasına qoşulmaq məcburiyyətindəyik. Həmin dövlətlərdə bazar iqtisadiyyatı, qiymətlərin qalxması müşahidə edilir. Amma insanların gəliri də yüksəkdir. Məhz bu səbəbdən bahalaşma cəmiyyətə təsir göstərmir. Biz sanki Sovet İttifaqından kapitalizmə keçmək istəyirik. Bir ayağımızı sosializmə, digərini də kapitalizmə uzatmışıq. O tərəfə keçə bilmirik. Sovet dönəmində olan mənfi cəhətləri özümüzdə daşıyırıq. Kapitalizmin müsbət xüsusiyyətlərini - təminat, yüksək maaş, azad bazar iqtisadiyyatını götürmürük. Sosializmdən, kapitalizmdən mənfi cəhətləri götürüb cəmiyyətimizdə inkişaf etdirmişik. Bu əslində bizi çox pis yerlərə apara bilər. Odur ki, dünyada gedən prosesləri izləməliyik. Finlandiya, İsveç ölçüsündə ölkəyik. Onların apardığı islahatlar yolu ilə biz də inkişaf etməli və addımlamalıyıq.

**- Sovet kəlməsini işlətdiniz. Qazaxıstanda baş verən hadisələrdən sonra iddialar ortaya atıldı. Guya, SSR bərpa olunacaq. Buna inanırsız?**

- Çox gülüncdür. Normal insan buna yalnız yumorla yanaşa bilər. Sovet İttifaqı özünəməxsus ideologiyaya malikdir. İmperiya ifadəsini işlədirik. Hər imperiyanın öz ideologiyası var. Karl Marks, Fridrix Engels, Vladimir Ulyanov və s. tonlarla kitabları, ideologiyaları mövcuddur. Sovet İttifaqı hansısa ölkəni sadəcə gəlib işğal etmirdi. İndi Qazaxıstana iki-üç rus əsgəri daxil olmuşdu. Rusiyanın erməni əsilli jurnalisti Marqarita Simonyan bağırırdı ki, nə Sovet İttifaqı, Çingiz xanın nəvə, nəticələrindən qazaxlara ultimatum göndərirdi. Krımı tanıyın, dövlət dilini rus dili elan edəcəksiz və s. Onlar da itiqovan kimi, necə lazımdırsa, qovdular. Simonyanlar, Putinlər olan yerdə imperiyanın ikibaşlı qartalı provaslavlıqdan söz açanda, rus imperiyasının keçmiş hədəflərindən söz açanda ittifaqdan danışmaq olar. Sovet İttifaqında Putin, Simonyan danışdığı sözlərə görə millətlərarası münasibətləri pozduğu üçün 15 ilə yaxın həbs cəzası, dərinə getsək güllələnmə qərarı da verə bilərdilər. Çünki antisovet təbliğatı idi. Sovet İttifaqı, xalqlar dostluğu ideologiyası vardı. SSR qurula bilməz, bunu kənara qoymaq lazımdır. Həmin ideologiya Rusiyada yoxdur. Orada Kommunist Partiyası varlığını qoruyub. Sovetlər ateist idilər. Bugünkü kommunistlər həm provaslav, həm imperialist, həm milləyətçidirlər. Onlar sovet adamı deyillər. Kommunist Partiyası dövlət büdcəsindən haram pullar yeyən partiyadır. SSR kimlə bərpa olunacaq? Gürcüstan, Ukrayna, Latviya, Estoniya, Moldova, Azərbaycanla? Bunların heç biri Sovet İttifaqını istəmir. Türkmənistana baxın. Görün, Sovet İttifaqı ilə hara gedib çıxıb. Sovet İttifaqı dağılandan sonra hər bir respublika öz guşəsində qalıb. Olduqları yerdən çıxmaqları üçün proseslər getməlidir. Amma Rusiya imperiyası ənənələri sürdürür. Guya, torpaqlarını bərpa etmək istəyir. Hətta Polşaya da iddiası var. Qəti mümkün deyil. Əksinə, nəinki imperiya bərpa olunacaq, Rusiya imperiyasının özü dağılacaq. Bu, təkamülün qanunudur, təkcə Rusiyaya aid deyil. İmperiyalar eyni xüsusiyyətlərə görə dağılırlar. Rusiya son yaralı vəziyyətində impulslarını nümayiş etdirir.

**- Rusiya ilə Ukrayna gərginliyinə görə Amerika ilə Rusiya diş-dişədirlər. Bu dəfə savaş başlasa, NATO və Amerika Ukraynanı yenə də "şimal ayısı"nın pəncəsində tək qoya bilərmi?**

- Onlar ukraynalıların əvəzinə gəlib vuruşmayacaqlar. Amma silahla təchiz edəcəklər. Məşhur cümlə var. Deyirlər ki, Makedonsuz cavabını verərik. Ukrayna Makedonsuz da Rusiyanın cavabını verə bilər və dizüstə çökdürməyi bacarar. Ukrayna müharibəyə tam hazırdır. Həmin xalq dünyanın ən savaşçı, vətənpərvər xalqlarından biridir. Lakin sözügedən ərazilərdə döyüşməyə hazır olan İngiltərə, Polşa, Amerikadan kiçik dəstələr var. Sanksiyalar Rusiyanı tez bir zamanda pis iqtisadi duruma gətirib çıxarmağa bəs edəcək. Bütün imperiyaların dağılması, başında duran diktatorların, özlərini çar hesab edən şəxslərin məhvi xarici məğlubiyyətlərdən keçir. Güman etmirəm ki, onlar Ukrayna ilə həqiqi müharibə etsinlər. Çünki çox cılız olduqlarını özləri başa düşürlər.

Dünyanın daxili məhsulu var. Dünya daxili məhsulunun 22 faizi Amerikanın, 20 faizi Avropa Birliyinin, 15 faizi Çinindir. Birlikdə dünya ölkələrinin ümumi daxili məhsulu 50 faizdən artıqdır. NATO ölkələri isə dünya ümumi daxili məhsulun 80 faizini təşkil edir. Rusiyaya isə 1 faiz aiddir. 80 faizlə 1 faiz qarşı-qarşıya dayana bilməz. Rəsmi Moskvanın təbliğatı yalan üzərində qurulub. V.Putin "multfilmlər"ə inanır. O, kompüteri işə sala bilmir, internetlə heç bir əlaqəsi yoxdur. V.Putin keçmiş "KQB"nin düşüncəsiylə yaşayır. Bu, özümüz üçün də nümunədir. Dünyada gedən proseslərdə Şimali Koreya ilə Cənubi Koreyanın fərqini bilək. Yəni Şimali Koreyanın deyil, Cənubi Koreyanın - inkişafın və tərəqqinin yanında olaq.

**- Son olaraq, Qarabağdakı rus sülhməramlılarının mövcudluğuna diqqəti çəkmək istəyirəm. Bu mövzu ətrafında geniş müzakirələr aparılır. Sizcə, rus sülhməramlıları Qarabağdan çıxacaqmı?**

- Mixail Bulqakovun "İt ürəyi" əsəri var. Ordakı iki personaj: professor Preobrajenski və Şarikovu görürük. Rusiya elitasının içi iki personajdan ibarətdir. Rusiyanı, eyni zamanda mədəniyyətini çox sevirəm. Lakin sanki professor Preobrajenski komandasıdır. Bir də Şarikov komandası var. Onlar it kimi hürməyi sevirlər, aqressiya yayırlar. Bu gün Qarabağdakı rus sülhməramlıları onların nəvə, nəticələridir, girdikləri yerdən çıxmazlar, heç vaxt. Tam məğlub, biabır olmayana qədər tərk etməyəcəklər. Necə Kubadan rəzilliklə çıxmışdılar, Qarabağdan da, biabırçılıqla çıxacaqlar. Nə qədər ki, sülhməramlılar getməyib, təxribatlar baş verəcək. Bu, tarixi ənənələrdir. Bizi əsəbiləşdirmək üçün heykəl qoyacaqlar, olmayan yerdə "rus icması" düzəldəcəklər. İri milçək adamın qulağının dibində uçur, elə hərəkətlər edirlər. Öz xoşları ilə tərk etməyəcəklər, biabırçılıqla çıxıb getməli olacaqlar.

**Söhbətləşdi: Aygün TAHİR**

# Onlayn bilet satışı dayandı

Belaruslu hakerlər Rusiyaya qarşı kiberhücumlar həyata keçirib



**Belaruslu hakerlər qrupu Rusiya qoşunlarının hərəkətinə və Moskva ilə yük daşımalarına mane olmaq üçün dəmir yolu şirkətinə kiberhücum edib.**

"Şərq" "HaberTürk"ə istinadən xəbər verir ki, 10-20 fevralda Belarus ərazisində keçiriləcək "Müttəfiqlərin qətiyyəti-2022" adlı birgə hərbi təlimdən əvvəl Rusiya ordusu bu ölkəyə qoşun yeridir.

Hərbi yüklərin daşınması davam edərkən, Belarus "Kiberpartizanlar" qrupu dəmiryol sistemini kiberhücum təşkil edib. Belarus Dəmir Yolları "texniki səbəblərə görə" onlayn biletlərin satışını dayandırdığını bildirib. Dövlət rəsmiləri hücumla bağlı şərh verməyib. "Kiberpartizanlar" qrupu bunu sərnişinlərə təsir etmək üçün yox, ola biləcək neqativ hadisənin qarşısını almaq üçün etdiklərini bildirib: "Biz bunu etdik, çünki dəmir yolu işğalçı qüvvələrin ölkəmizə daxil olmasına imkan verir".

"Kiberpartizanlar" yalnız bir sıra tələblər yerinə yetirilərsə, kiberhücuma son verəcəklərini qeyd ediblər. Bunlar Belarusiyanın tibbi yardıma ehtiyacı olan 50 siyasi məhbusunun azad edilməsi və Rusiya əsgərlərinin ölkəyə girişinin qarşısının alınmasıdır.

*Qeyd edək ki, ölkədə etirazlar 2020-ci ilin avqustunda keçirilən səsvermədə Aleksandr Lukaşenkonun yenidən prezident seçilməsi ilə başlayıb. Müxalifət və Qərb ölkələri seçkiləri saxta hesab edir.*

**Cəmilə ƏZİM**

**Elan**

Kərimov Elşən Şahbala oğluna Dövlət Sərhəd Xidməti tərəfindən verilmiş xidməti vəsiqə XV ZH002687 itdiyi üçün etibarsız sayılır.

Abasov Abas Kamran oğluna məxsus MV 080125 Qarabağ veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# "Azərbaycan Uşaq Qaynar Xətti" 2021-ci ilə olan hesabatı təqdim edib

Azercell-in dəstəyilə fəaliyyət göstərən xidmətə ötən il 5300-ə yaxın müraciət daxil olub

**On bir ildən artıqdır ki, "Azercell Telekom" MMC-in, UNİCEF Azərbaycanın və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin birgə əməkdaşlığı ilə fəaliyyət göstərən "Azərbaycan Uşaq Qaynar Xətt" (AUQX) xidməti yarandığı gündən müxtəlif problemlərlə üzləşmiş uşaqlara kömək edir. Qeyd edək ki, bu illər ərzində xidmətə 53000-dən çox müraciət daxil olub.**




Bu müddət ərzində qurulan uğurlu əməkdaşlığın indiki səviyyəsini müzakirə etmək və gələcək konturlarını müəyyənləşdirmək məqsədilə "Azercell Telekom"un Korporativ Ünsiyyət departamentinin direktoru Sona Abbasova, şirkətin Media ilə əlaqələr üzrə direktoru Nigar Şıxlinskaya və digər nümayəndələri ilə "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin icraçı direktoru Kəmalə Aşumova və sədri Nabil Seyidov arasında görüş keçirilib. Görüşdə gələcək planlar müzakirə olunub, daha fərqli istiqamətlərdə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb. Sonda "Azercell Telekom"u "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətini dəstəkləməklə uşaqların hüquqlarının qorunmasında uzunmüddətli töhfəyə və əməkdaşlığa görə "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi Fəxri Fərmanla təltif edib.

"Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin təqdim etdiyi hesabata əsasən məkrəzə 2021-ci il ərzində müxtəlif sahələri əhatə edən problemlərin həlli ilə bağlı 5300-ə yaxın zəng edilib. Bunlardan 1471-i təhsil, 1036-sı hüquqi, 822-si psixoloji, 606-sı səhiyyə, 501-i sosial və digər məsələlərlə bağlı zənglər olub. Müraciət edənlərə əsasən telefon vasitəsilə psixoloji yardım göstərilib, ehtiyac olduqda isə fərdi və qrup terapiyaları həyata keçirilib. Həmçinin ailələrdə psixoloji və fiziki zorakılıq halları ilə bağlı 414 müraciət daxil olub. Bu müraciətlərin hər biri ilə əlaqədar ailələrlə iş aparılıb, hüquqi məsləhətlər verilib.

İl ərzində qaynar xəttə daxil olmuş müraciətlərin araşdırılması və müvafiq yardımların göstərilməsi məqsədilə mərkəz tərəfindən müxtəlif təşkilatlara 364 məktub ünvanlanıb. Bəzi müraciətlərin ətraflı araşdırılması məqsədilə 81 ailə mərkəzə dəvət olunub, onların uşaqları ilə 263 sosial-psixoloji reabilitasiya işi həyata keçirilib. Daxil olan müraciətlərə əsasən bir sıra ailə və məktəbə təcili-təxirəsalınmaz səfər təşkil edilib.

Qeyd edək ki,"Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinin fəaliyyəti yalnız zənglərin cavablandırılması ilə bitmir. Eyni zamanda, hər il əhalinin məlumatlılığının artırılması, uşaq və yeniyetmələr üçün əlçatanlığın təmin edilməsi məqsədilə qaynar xətt xidmətinin əməkdaşları tərəfindən müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilir. Ümumilikdə, 2021-ci il ərzində maarifləndirmə tədbirlərinə 1500-dən çox uşaq cəlb olunub.

*"Uşaq Qaynar Xətt"inə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, ushaqqaynarxetti@gmail.com elektron poçtu, Facebook və Instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.*


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 234



## 79 yaşlı kişi 3 ildir gözü açıq yatır

Əlavə əməliyyatlar edilsə də, problem düzəlməyib

**Uğursuz plastik əməliyyatdan sonra kişi 3 ildir ki, gözü açıq yatmağa məcburdur.**

Medicina.az xəbər verir ki, britaniyalı Piter Brodhers 2019-cu ildə üzündə plastik əməliyyat keçirib. Lakin əməliyyatdan sonra kişinin göz qapaqları bağlanmır. Biçarə kişi bildirib ki, 17 yaşında o, stomatoloji əməliyyat sonrakı yanaqlarının şiş qalmasından sonra çox narahat idi. Ona görə plastik əməliyyatla bu qüsuru düzəltmək qərarına gəlir. Əməliyyat zamanı kişinin yanaq, burun, göz üstü forması dəyişdirilir. Lakin bundan sonra onun gözündə göz qapağının ektropionu yaranıb, göz qapağının aşağı kənarı göz almasından kənara çıxıb. Buna görə o gözünü tam qırpa və yuma bilmir. Əlavə əməliyyatlar edilsə də, problem düzəlməyib.

Gözlərini qurumaqdan qorumaq üçün Brodherst göz damlaları tökür, gecələr isə üzünə isti dəsmal qoyub yatır. Bu problemə görə onun görməsi də zəifləyib. Kişini bu hala salan estetik cərrah qovulub.

## Norveç ölkəyə daxil olan tursitlər üçün karantin öhdəliyini ləğv edib



**Norveç ölkəyə daxil olan tursitlər üçün karantin öhdəliyini ləğv edib.**

"Report" xəbər verir ki, bu barədə ölkə hökuməti məlumat yayıb. "Norveç Xalq Sağlamlığı İnstitutunun tövsiyəsi ilə hökumət ölkəyə girişdən sonrakı karantin tələbini qaldırır, çünki bu tədbir artıq zəruri hesab edilmir. Tələb yanvarın 26-dan etibarən qaldırılacaq", - bəyanatda deyilir.

Əvvəllər Norveçə daxil olan, ölkədə təsdiqlənmiş peyvəndlərlə və ya koronavirusla bağlı tam peyvənd sertifikatı olmayanlar üçün karantin elan edilmişdi.

## Həkimlər şoka düşdü

### 67 ildir çimməyən kişinin səhhətində heç bir problem yoxdur



**67 ildir çimməyən iranlı Amou Hadji müayinə edilib. Medicina.az xəbər verir ki, müayinənin nəticələri həkimləri heyrətə gətirib.**

**Bildirilir ki, 87 yaşlı şəxsin səhhəti üçün heç bir təhlükə yoxdur. Üstəlik onun immunitet sistemi olduqca güclüdür**

***Qeyd edək ki, iranlı çimməyin ona şansızlıq gətirəcəyini düşündüyü üçün 67 ildir çimmir. İranlının vəziyyəti sakinlərin diqqətini cəlb edib. Onlar küçədə yaşayan yaşlı şəxs üçün kiçik daxma tikib.87 yaşlı şəxs bəzən ölü heyvan ətlərini yeyərək yaşayır. /metbuat.az/***

## Kardioloqlardan xəbərdarlıq

### Televizor və telefona çox baxmaq tromb əmələ gətirir



**Günün yarıdan çoxunu televizor, kompüter və telefon arxasında oturanlardas tromb yaranma riski yüksəlir. Medicina.az xəbər verir ki, bu barədə Avropa kardioloqlar cəmiyyətinin yeni press relizində yazılıb.**

**Gündə 4-5 saat və daha çox televizor qarşısında oturmaq tromb riskini 35% artırır.**

**İşi ilə bağlı monitor qarşısında çalışanlar hər 30 dəqiqədən bir qalxıb gəzməli, dartınmalı, velotrenajorda 10 dəqiqə məşq etməlidir.**

**"Televizor qarşısında 3 və daha çox saat keçirənlərdə tromb yaranma riski 35%-dir. 2 saatdan az oturanlarda bu risk 10%-dir. Heç bir idman, fiziki aktivlik televizor qarşısında uzun müddət oturmağın riskini azaltmır. Qan dövranında durğunluq öz işini görür".**

**Tədqiqatın müəllifi doktor Setot Kunuçor bildirir ki, hər 30 dəqiqədən bir yarım saat, 1 saat fasilə vermək lazimdir. Eləcə də televizora baxarkən atışdırmalıq qidalar yemək də zərərlidir. Televizora baxmaqla venoz tromboemboliya arasında əlaqə var. Bu xəstəlik ağciyər emboliyası və dərin venaların trombozu denəkdir. Mütəxəssislər 40 yaşa qədər 131 min nəfərin televizor qarşısında keçirdiyi vaxtı və sağlamlıq vəziyyətini müqayisə edib. Alimlər müəyyən edib ki, ən rekord vaxt televizor qarşısında 12 saat vaxt keçirənlərdir. 964 nəfər hansı ki, mütəmadi olaraq hər gün 4-5 saat televizor qarşısında oturub, onlarda venoz tromboz inkişaf edib.**

**Ona görə də televizor və komputer qarşısında çox oturanlar 30 dəqiqədən bir qalxmalı və fiziki aktivlik göstərməlidirlər.**












MY LIFE IN A JAIL CELL

RUSSELL BISHOP today spoke for the first time of his life behind bars.

From his prison cell in top security Whitemoor prison in Cambridgeshire, the man jailed for life for the Devil's Dyke sex attack said: "At times I've felt that I just can't go on."

Russell Bishop: There have been a lot of times when I have been feeling down, when I've felt I just can't go on. Then I look at the photos of my children and I know they want me to keep going

Report by Phil Mills, crime reporter







# Körpə qatili can verdi

## "Cəhənnəmdə çürüyəcək, inşallah!"

**Məlahət Rzayeva**

**36 il əvvəl iki qızcığazı qətlə yetirmiş qatil nəhayət cəhənnəmlik oldu! 36 il öncə nə baş vermişdi? Körpələr niyə, necə qətlə yetirilmişdi? Xarici mediada yer alan məlumata görə, İngiltərədə yaşanmış bu dəhşətli faciə barədə sənədlər "Meşədəki körpələr" adı altında xüsusi qovluqda toplanıb. İngiltərə vətəndaşı Russell Bishop 1986-cı ildə 9 yaşlı Nicola Fellovs və Karen Hadavay adlı iki qızcığaz parkda oynayırmış.**

Cani onları bir kənara çəkib, cinsi istismar etdikdən sonra boğub. Cani yaxalansa da, istintaqda yol verilmiş xətalar səbəbindən 1987-ci ildə sərbəst buraxılmışdı. Qızların ailələri tam 32 il ədalətin qələbə çalacağını gözlədilər, körpələrin qatilinin cəzalanmasını tələb etdilər. Və yalnız 2018-ci ildə ortaya çıxan bir DNA izi nəhayər bu caninin cəzalanmasına imkan yaratdı. Cani həbsxanaya salındı. Bir il sonra isə ona beyin xərçəngi diaqnozu qoyuldu. Həkimlər bildirdi ki, xərçəng bağırsaqlardan beyinə sıçrayıb. Təsəvvür edin, cani əməliyyat olunub, xəstəxanada müalicə alıb. 3 il bu xəstəliklə yaşayıb. Və nəhayət 55 yaşında gəbərib. Onun son günləri 2 mühafizəçi tərəfindən daim izlənib. Mühafizəçilər körpə qatili caninin son günlərini təkadamlıq kamerada keçirdiyini bildirib. Qətlə yetirilmiş qızlardan birinin anası Michelle Johnson bunları söyləyib: "Ümid edirəm, cəhənnəmdə sonsuzadək çürüyəcək. Alçaq canavar! Ümid edirəm onun ailəsi də bizim kimi acı çəkər. O zaman bizim necə acı çəkdiyimizi anlayarlar". Qatil o müdhiş cinayəti işlədiyində 20 yaşında olub. Xərçəng diaqnozu qoyulduğunda və qısa zamanda öləcəyi ona bildirildiyində, həmin cinayəti niyə, hansı səbəbdən törətdiyini söyləmək üçün ona şans verilib. Lakin cani cinayəti etiraf etməyib. O, yalnız kiçik qızları cinsi istismar etdikdən sonra oradaca buraxıb getdiyini deyib.

Qızcığazların ailələri isə "o, bir qorxaqdır. Etdiyi əməli etiraf etməyə belə gücü yetmədi", deyərək nəhayət ədalətin zəfər çaldığını söyləyiblər.



# 26 milyonda bir hadisə...

### Uşağa sancısı tutmuş qadına kömək edən həkimin adı verilib

**Toronto Universitetində çalışan həkim Aişa Xatib Uqandaya səfəri zamanı nadir rastlanan hadisə ilə qarşılaşıb. Həkim xanımın da salonunda olduğu "Qatar Airways" in Qətərdən Uqandaya uçuş gerçəkləşdiyi təyyarənin idarəetmə pultundan həyəcanlı xəbər yayılıb: "salonda həkim varmı?". Bunu eşidən Aişa Xatib yerindən qalxaraq sərnişinlərin sıx toplaşdığı sıraya doğru gedib.**



Məlum olub ki, sərnişinlərdən biri doğuş sancısı çəkir. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, təyyarədə - göyün 7-ci qatında körpənin dünyaya gəlməsi çox nadir, 26 milyonda bir yaşanan hadisədir. Hər ana körpəsini normal şərtlər daxilində, əvvəlcədən müəyyənləşmiş klinika, xəstəxana və həkim nəzarəti altında həyata keçməsini arzulayır. Lakin gözlənilməz, planlaşdırılmamış doğuşlar da olur. Bəzən qadınlar doğuş zamanını bilmədən təyyarəyə minir və burada gözləmədikləri halla qarşılaşırlar. Bəziləri doğuş tarixini düzgün hesablamır, amma körpə proqnozları pozaraq dünyaya "salam" deyir. Qətər-Uqanda təyyarə reysində də belə bir gözlənilməz hal yaşanıb. Həkim Aişa Xatib də bu təyyarə reysini həyatında heç bir zaman yaddan çıxarmayacaq. Pilot kabinəsindən səsləndirilən məlumatı eşidib sərnişinlərin toplaşdığı sıraya doğru gedən həkim burada bir qadının doğum gerçəkləşdirmək üzrə olduğunu görüb. Aişa Xatib dərhal peşəsinin icrasına başlayıb. Hamilə qadının bəxtindən təyyarədə bir pediatr və onkoloq həkim də olub. 3 həkim birlikdə qadına doğuşu həyata keçirməkdə kömək ediblər. Körpə sağlam bir şəkildə dünyaya gəlib. Pediatr körpəni müayinə edib və səhhətində heç bir problem olmadığını deyib. Həkim Aişa Xatib körpənin qız olduğunu xəbər verdikdə, salonda alqış sədaları qopub. Ən maraqlısı da budur ki, qadın körpəsinə həkimin adını verib. Aişa Xatib də üzərində ərəbcə "Aişa" yazılmış boyunbağını boynundan açaraq yeni doğulmuş körpəyə - adaşına hədiyyə edib. Bu zaman təyyarə məşhur Nil çayı üzərindən uçurmuş. Körpəyə Nil adını qoysaydılar da pis olmazdı. Bu hadisə təyyarədə gerçəkləşən doğum hadisələrindən yalnız biridir.

**Məlahət**

## "Altun süd"...

### Diyetoloq inanılmaz faydalarını açıqladı



**"Altun süd", başqa sözlə, "qızıl süd" nədir? Türkiyəli diyetoloq Gamze Altınay "qızıl süd"ün orqanizmı faydalarını və hazırlanma qaydasını açıqlayıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən bildirir ki, diyetoloq "qızıl süd"dən hindistanlıların əsrlərdir istifadə etdiyini deyib. Südə qızılı rəng verənsə sarıkökdür. Başqa adla - zərdəçal! Hindistanda yatmazdan öncə içinə sarıkök qatılmış 1 fincan isti süd içmək ənənəsinin kökləri çox qədimlərə gedir. Sarıköklü isti süd hindlilərinin sevimli içkisidir. Hindistanlılar belə bir içkinin orqanizmin immunitetini gücləndirdiyinə, şəfa qaynağı olduğuna əmindirlər. Xüsusən hazırkı viruslu dünyamızda belə şəfalı içkilərə böyük ehtiyac var. İmmuniteti gücləndirmək xəstəliklərə qalib gəlməyə, qış günlərində məruz qala biləcəyimiz soyuqdəyməni asanlıqla, qısa zamanda atlatmağa imkan verəcək. Hindlilər bol ədviyyatlı içkilərin təkcə orqanizmi deyil, ruhu qidalandırdığına da əmindirlər. "Qızıl süd"ə zərdəçalla yanaşı qara istiot, darçın, zəncəfil, hil, hindistan cevizi də əlavə edilə bilər. Lakin ən önəmli ədviyyat məhz zərdəçaldır. Südə qatılan ədviyyatlar yüksək antioksidan keyfiyyətə malikdir və orqanizmə verdiyi şəfa da bundan qaynaqlanır. Antioksidanlar immuniteti gücləndirir, orqanizmi xərçəncə qarşı qoruyur, xolesterolu aşağı salır, həzm prosesini asanlaşdırır, diabet, piylənmə kimi xəstəliklərə qarşı təsirlidir. Zərdəçal həmçinin artıq çəkidən xilas olmağa da kömək edir.

*Diyetoloq "altun süd"ün hazırlanma qaydasını açıqlayıb:*

**1 stəkan südə:** 1 çay qaşığı zərdəçal, 1 çay qaşığı darçın, 4/1 çay qaşığı üyüdülmüş qara istiot, 2-3 ədəd mixək, 1 çay qaşığı təbii bal. Süd əlavə edilmiş ədviyyatlar isdilir, bal sonra əlavə edilir. Şəfa olsun!

**Məlahət**

## Bu balıq xərçəng xəstəliyi yaradır

### Mütəxəssis deyir ki, adətən, bu balıq digər xörəklər və düyü üçün qarnir kimi istifadə olunur



**Britaniyalı əczaçı Husseyn Abde duzlu balıq yeməyi məsləhət görmür. Onun sözlərinə görə, bu balıq xərçəng xəstəliyi yaradır.**

"Bu dəniz məhsulu Cənub-Şərqi Asiyada populyardır. Adətən, bu balıq digər xörəklər və düyü üçün qarnir kimi istifadə olunur. Hot-doq, emal olunmuş ət, salyami kimi duzlu balıq da birinci kateqoriya kanserogenlərə aid edilir", - Abde Express nəşrinə deyib.

Həkimin sözlərinə görə, balıq konservləşdirilərkən onu duzlayanda bu, əlavə məhsulların yaranmasına səbəb olur ki, bunlar da son nəticədə xərçəng xəstəliklərini tətikləyir.

Mütəxəssis bu fikirdədir ki, istənilən duzlu, marinə edilmiş, hisə verilmiş qida mədə və yoğun bağırsaqda xərçəng yarada bilər. O, bu cür qidalardan tez-tez istifadə etməyi məsləhət görmür.